QARABAĞ AZƏRBAYCANDIR!

## Fədakar elm xadimi



6

# “Potensialımıza dair böyük gözləntilər var”

Prezident İlham Əliyev "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib



2

SƏS

№ 229 (6670) 14 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

# Ekoloji terrora son!



8

## “Azərbaycanın mineral və təbii ehtiyatları qanunsuz istismar edilib”



3

## Volkov-Vardanyan tandemində KREML İZİ



7

## “Xankəndinə sülhməramlı adıyla gəlsələr də, Qarabağda möhkəmlənmək istəyirlər”



5

## Utilizasiya proqramı necə həyata keçirilir?



11

## Kirayə evlər niyə bahalaşır?



16

# “Potensialımıza dair böyük gözləntilər var”

## Prezident İlham Əliyev "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib

***Azərbaycan Prezidenti İlham Əliyev dünən Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda ”Azəri-Mərkəzi-Şərqi” platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.***

AZƏRTAC xəbər verir ki, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, Azərbaycan Dövlət Neft Şirkətinin - SOCAR-ın prezidenti Rövşən Nəcəf dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər, videoçarx nümayiş olundu.

Bildirildi ki, ”Azəri-Mərkəzi-Şərqi” layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə ”Azəri-Çıraq-Günəşli” (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyi təxminən 140 metr olan sahəsində,







”Mərkəzi Azəri” və ”Şərqi Azəri” platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG ”Faza 2” sualtı ixrac kəmərlərinə qoşulacaq.

”Azəri-Mərkəzi-Şərqi” platformasının dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğuya biri suvurma, biri neft ixracı, biri də qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir. Dayaq bloku suyun 137 metr dərinliyində quraşdırılacaq.

BP-nin regional prezidenti Qəri Counz dedi: Bu, hər iki tərəfdə yerləşən nəhəng çənlərin idarəetmə modullarıdır. Hər tərəfində belə üç çən var. Olduqca nəhəng qurğudur.

Prezident İlham Əliyev: Bəli, həqiqətən də möhtəşəmdir. Video çox əhatəli idi. Sıfırdan nəhəng infrastruktur qurğusu yaradılıb.

Qəri Counz: Burada - zavodda gördüyünüz hər şey poladdan hazırlanıb.

Prezident İlham Əliyev: Bəli, bu da ən böyük nailiyyətlərdən biridir. Çünki başlanğıcda bu, heç də belə deyildi. Lakin bir müddət sonra bütün inşaat işləri burada həyata keçirildi. Bu, əhəmiyyətli nailiyyətdir. Bundan başqa, bir neçə gün əvvəl ”Akademik Xoşbəxt Yusifzadə” tankerini istismara verərkən, biz faktiki olaraq bütün gələcəyimizə, neft-qaz layihələrinə mühüm töhfə vermiş bu ərazinin, zavodun keçmişi ilə bağlı xatirələrimizi bölüşdük. Çünki əgər o, 1970-1980-ci illərin sonunda yaradılmasaydı, hasilata başlamaq daha çox vaxt aparardı.

SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə: Bəli, burada dərin özüllər zavodu Heydər Əliyevin sayəsində tikildi. O, olmasaydı, zavodu burada tikməyəcəkdilər.

Qəri Counz: Görüləcək çox iş var. Bilirsiniz ki, biz ”Şahdəniz”də də dərində qazma işləri aparırıq. Çox maraqlıdır. Növbəti 30 il bəlkə də son 30 ildən daha da maraqlı olacaq.

Prezident İlham Əliyev: Bəli, xüsusilə beynəlxalq bazarlarda təbii qaza olan böyük tələbatı nəzərə alsaq, bu, düşünürəm ki, əsl vaxtında olacaq. Əlbəttə ki, potensialımıza dair böyük gözləntilər var. Biz həmişə bilirdik bizim nə qədər ehtiyatımız var. Ümid edirəm ki, qazmaya başlayanda ”Azəri-Çıraq-Günəşli”də olduğu kimi, bu yataq da böyüyəcək. Praktik nəticələr ilkin proqnozdan ən azı iki dəfə artıq oldu. Bütün infrastrukturun, daşıma infrastrukturunun hazır olduğunu nəzərə alaraq hesab edirəm ki, mümkün olduğu qədər çox hasil etmək üçün səy göstərmək baxımından, Azərbaycan xalqına və beynəlxalq tərəfdaşlarımıza xidmət göstərmək üçün bu, həqiqətən də tarixi fürsətdir.

***Ardı Səh. 3***

# “Potensialımıza dair böyük gözləntilər var”

Prezident İlham Əliyev "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib





Əvvəli Səh. 2

Qəri Counz: Bu, bizim məqsədimizdir.

Rövşən Nəcəf: Tərəfdaşlarla müzakirə etdiyimiz ideya ondan ibarət idi ki, tərəfdaş olmaq sadəcə mənfəət və xərclərin bölüşməsi deyil. Eyni zamanda, bilik və yeni texnologiyaların mübadiləsidir. Ona görə biz daha yaxşı nəticə əldə etmək üçün yeni mütəxəssisləri, yeni fikirləri və yenilikləri bir araya gətiririk.

Sonra Prezident İlham Əliyev, SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə və BP-nin regional prezidenti Qəri Counz dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basdılar.

Prezident İlham Əliyev: Bizim daha bir vacib mərasimimiz var. Qəri Counz təqribən iki ay yarım əvvəl ”Dostluq” ordeni ilə təltif edilib. Hesab edirəm ki, bu gün həmin ordeni təqdim etmək üçün ən yaxşı fürsətdir.

Qəri Counz: Cənab Prezident, bu, mənim üçün gözlənilməz oldu. Sizə çox təşəkkür edirəm.

Prezident İlham Əliyev: Siz buna həqiqətən layiqsiniz. Bu, sizin Azərbaycanın neft-qaz sənayesinin inkişafına verdiyiniz mühüm töhfəniz, dostluğunuz və Azərbaycanın yaxşı sakini olduğunuza görədir. Siz demək olar ki, vətəndaşımızsınız və xalqımızın təməl ehtiyaclarını anlayırsınız. Bizimlə Şuşaya səfər etdiyinizə və bütün heyətinizin gördüyü işlərə görə sizi məmnuniyyətlə təltif etdim. Təltif sentyabrın 19-da olub, ancaq mən fürsət gözləyirdim və zənnimcə, bu gün əla gündür. Bu nəhəng qurğunun önündə sizə bu ordeni təqdim edirəm.

Qəri Counz: Çox təşəkkür edirəm. Bu, mənim üçün böyük şərəfdir. Şəxsən öz adımdan və bütün BP heyəti adından Sizə minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev ”Dostluq” ordenini BP-nin regional prezidenti Qəri Counza təqdim etdi.



# “Azərbaycanın mineral və təbii ehtiyatları qanunsuz istismar edilib”



“Azərbaycanın mineral və təbii ehtiyatları qanunsuz istismar edilib. ”Qızılbulaq” və ”Dəmirli” faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarı halları intensivləşib və müxtəlif mənbələrə əsasən, bu fakt təsdiqini tapıb.” Bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomatik korpusun nümayəndələri ilə görüşündə deyib.

H.Hacıyev qeyd edib ki, xüsusilə faydalı qazıntı yataqlarının yerləşdiyi ərazidə yük maşınlarının keçidinin intensivləşdiyi müşahidə olunub. Bu məsələ Azərbaycanın müvafiq dövlət qurumları, xüsusilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İqtisadiyyat Nazirliyi tərəfindən monitorinq aparılaraq araşdırılıb. H.Hacıyev diqqətə çatdırıb ki, ”Rusiya sülhməramlılarına məktublar yollamışıq, onların komandanı ilə əlaqə saxlayırıq.”

Prezidentin köməkçisi qeyd edib ki, eyni zamanda, bu məsələlər Azərbaycan cəmiyyətində ciddi narazılıqlara səbəb olub. ”Çünki hər kəs çox yaxşı xəbərdardır ki, işğal illərində və ərazilərin işğaldan azad olduğu dövrdə Azərbaycanın suverenliyi ilə bağlı məsələlər cəmiyyətimizdə ciddi narahatlıq doğurur. Buna görə də Azərbaycanın vətəndaş cəmiyyətinin fəalları, qeyri-hökumət təşkilatlarının nümayəndələri, digər fəallar və qruplar Şuşa-Xankəndi-Laçın yolunun kəsişməsində toplaşaraq etirazlarını bildiriblər”, - deyən Hikmət Hacıyev vurğulayıb ki, etirazçıların söylədikləri fikirlər bütün hüquqi çərçivələrə uyğundur. Onlar qanuni tələblər irəli sürürlər, qeyri-qanuni heç nə istəmirlər. Həmçinin onların səsləndirdikləri şüarlarda ekoloji terrordan da bəhs olunur. Onlar Qarabağda ekoloji terrora son qoyulmasını tələb edirlər.

# Moldova KİV-i Laçın-Şuşa yolundakı etiraz aksiyasından yazıb




***Moldovanın nüfuzlu xəbər portalları Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, fəalların, könüllülərin iştirakı ilə Laçın-Şuşa yolunda keçirilən etiraz aksiyasına geniş yer ayırıb.***

Moldovanın ”Point”, ”Dosar Media” və digər xəbər portallarında AZƏRTAC-ın materialları əsasında hazırlanan məqalələrdə bu aksiyaların əhəmiyyətinə diqqət yetiriblər.

Məqalələrdə qeyd olunur ki, ekoloji fəallar təbii sərvətlərin talan edilməsinə son qoyulması tələblərini bildirən şüarlar söyləyirlər. Etirazçılar ”Qızılbulaq” qızıl yatağına və ”Dəmirli” mis-molibden yatağına buraxılmayınca aksiyanı davam etdirmək fikrində olduqlarını bildirirlər. Etirazçılar üçün qurulmuş çadırlara isti yemək çatdırılır.

Yazılarda, həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin Rusiya tərəfinə etiraz notası göndərdiyi, bu notada Azərbaycan nümayəndələrinin göstərilən yataqlara maneəsiz baş çəkmələrini təmin etməyə çağırış əks olunub. Belə səfərə maneə törətməyin və ya hər hansı şərtlər irəli sürməyin yolverilməz olması vurğulanıb.

***Emil Hüseynli***

# “DƏMİR YUMRUĞ”UN
# gücü ilə tarixi dəyişən 44 gün!

*İLHAM ƏLİYEV: "Azərbaycan XXI əsrin müharibəsini apardı, bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb"*

**Bəli, Azərbaycan XXI əsrin müharibəsini apardı. Və 44 gün davam edən XXI əsrin müharibəsi bizim dəmir yumruq kimi birliyimizi, gücümüzü, mümkünsüzü mümkün edən Güclü ordumuzun rəşadətini, qəhrəmanlığını göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi: ”Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi. Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu. Bizdə olan İsrail dronları kəşfiyyat dronları və kamikadze dronları idi, Türkiyə dronları kəşfiyyat dronları və qırıcı dronlar idi. Bunları bir hərbi əməliyyatda birləşdirmək asan deyildi”.**



## QIRX DÖRD GÜNLÜK MÜHARİBƏNİN HƏR BİR GÜNÜ QƏHRƏMANLIQ DASTANIDIR

Bəli, cəmi 44 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Güney Qafqaz regionunda yeni reallıq bərqərar olsun və bu 44 gün müddətində terrorçu Ermənistanın ”status-kvo”nu üreyində qalsın. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də dəfələrlə bildirdi ki, ”status-kvo” artıq yoxdur: ”Status-kvo” deyilən məsələ yoxdur. Qurtardı getdi. ”Status-kvo” belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu. Bax, orda, döyüş meydanında. ”Status-kvo” yoxdur. Təmas xətti - yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qururdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub - 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq”. Bəli, ”Dəmir yumruq” birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı. Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın ”Dəmir yumruğ”unun ətrafında birləşməsi ilə bütün dünyaya gücünü göstərdi. Ermənistan bu illər ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərməsinə baxmayaraq, Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə birgə Bəyanat imzalandı. Bu bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu, ”Dəmir yumruğ”un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu.

Bir sözlə, sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsi şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri ilə başa çatdı və 30 ilə yaxın 44 gün davam edən İkinci Vətən Müharibəsi işğala həmişəlik son qoydu. ”Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər”,- deyən dövlət başçısı bildiridi ki, cəmi 44 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Cənubi Qafqaz regionunda yeni reallıq bərqərar oldu. Bu 44 gün müddətində terrorçu Ermənistan Respublikasının ”status-kvo”su artıq Azərbaycan ordusunun zəfərləri sayəsində ləğv edildi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də bildirdi: ””Status-kvo” deyilən məsələ yoxdur. Qurtardı getdi. ”Status-kvo” belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu. Bax, orda, döyüş meydanında. ”Status-kvo” yoxdur. Təmas xətti - yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qururdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub - 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim, heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq”.

## MÜDRİK LİDER, BÖYÜK STRATEQ, QALİB SƏRKƏRDƏ

Bəli, qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Son 19 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, ulu öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 19 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ”güclü dövlət” konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Məhz 10 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarixi gün oldu.

## AZƏRBAYCANIN SİYASİ-DİPLOMATİK UĞURU

Bu gün bütün dünya xalqımızın öz torpaqlarını bərpa etmək əzminə şahidlik edir. Vətən müharibəsindən sonra özünü dərhal göstərən başqa bir məqam ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət 44 günlük müharibədən sonra yaranan reallıqları qəbul edir. Ən mühümü isə odur ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə beynəlxalq ictimaiyyət ehtiramla yanaşır.

Vətən müharibəsindən sonra da Azərbaycan diplomatik istiqamətdə fəal iş apardı. Xarici diplomatik korpusun nümayəndələrinin, respublikamıza gələn əcnəbi qonaqların işğaldan azad olunmuş ərazilərə səfərləri təşkil olundu. Bunun sayəsində dünya erməni vəhşiliyinə, Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi cinayətlərə şahidlik etdi. Bütün bunlar dövlətimizin haqlı mövqeyini bir daha dünyaya çatdırdı, yeni reallıqların beynəlxalq ictimaiyyətə dolğun çatdırılması baxımından mühüm əhəmiyyət kəsb etdi.

Ən əsası isə əlamətdar hadisə olan BMT xətti ilə Şuşada beynəlxalq tədbirin keçirilməsi oldu. Dövlət başçısı bununla bağlı bildirmişdir: ”Biz ilk növbədə beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər. İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir - Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu çox əlamətdar hadisə idi. Bu bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur”.

Göründüyü kimi, aparıcı beynəxalq təşkilatların Azərbaycanın yaratdığı yeni reallıqları qəbul etmələri dövlətimizin mühüm siyasi-diplomatik uğurudur.

## BU NAİLİYYƏT VƏ QƏLƏBƏLƏR HƏM DƏ XALQ-ORDU BİRLİYİNİN, ORDUYA OLAN İNAMIN QƏLƏBƏSİDİR!

Artıq qələbəmizdən iki il ötür. Bu iki il ərzində işğaldan azad olunmuş torpaqlar quruculuq meydanına çevrilib. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, ”Qarabağ Azərbaycandır və nida işarəsi” deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da ”Qarabağda cənnət yaradacağıq” vədini addım-addım yerinə yetirməkdədir. Bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəs alan torpaqlarımıza hər səfəri zamanı Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq. Bunun üçün hər bir imkan, hər bir şərait var. İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti öz xalqına, öz gücünə inanır və torpaqların tez bir zamanda cənnətə dönəcəyi barədə verilən bəyanat bir həqiqətə çevriləcəkdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz el-obalarına geri dönəcəklər. Budur, Ali Baş Komandanımızın diplomatik siyasətinin nəticəsi! Budur Güclü Ordumuzun gücü, budur mübariz, igid əsgərlərimizin rəşadəti! Bu nailiyyət və qələbələr həm də Xalq-Ordu Birliyinin, orduya olan inamın Qələbəsidir! Çünki Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, uğurlu siyasəti haqq işidir! Çünki Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

***RƏFİQƏ KAMALQIZI***

# "Xankəndinə sülhməramlı adıyla gəlsələr də, Qarabağda möhkəmlənmək istəyirlər"

**Hazırda QHT-ləri təmsil edən bir qrup Azərbaycan ekoloqu Laçın-Şuşa yolunda etiraz aksiyasını davam etdirir. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarına etirazlarını bildirir.**

Bildirək ki, ekoloji fəallar çadırlar qurublar və onları təbii ehtiyatların qanunsuz istismarının və talan edilməsinin fəallaşması, o cümlədən ekoloji nəticələrin pisləşməsi müşahidə edilən Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına buraxmayınca oradan getmək fikrində deyillər.



Əllərində plakatlar və bayraqlar tutmuş, şüarlar söyləyən dinc etirazçıların qarşısını rus sülhməramlıları almaq istəyir. SİA mövzu ilə bağlı aksiya iştirakçıları arasında sorğu keçirib.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədr müavini Məhsəti Hüseynova:** "Dünən saat 8-dən aksiyaya



başlamışıq. Aksiyamızın şüarı da, adı da "Ekoloji terrora yox deyək!", "Ekoloji terrora son qoyaq"dır. Bu şüarlarla davam edirik.

Keçən həftədə 3-7 dekabr tarixində sülhməramlıların komandiri olan polkovnikə bir tələbnamə göndərdik ki, Xankəndində olan mis və qızıl yataqlarının xarici şirkətlər tərəfindən istismar olunur. Əsas istəyimiz odur ki, biz bunun monitorinqini keçirmək və eyni zamanda istismarın qarşısını almaq üçün bu aksiyaya başlamışıq. Artıq ikinci sutkadır ki, buradayıq və dünən səhər saatlarında başlayanda Aleksandr Volkovun köməkçisi bizi qarşıladı. O, tamamilə sərxoş vəziyyətdə idi. Bizim verdiyimiz sualların heç birinə cavab vermədi, ancaq sonda söz verdi ki, bizim tələbimizi ona çatdıracaq və o gələcək. Lakin heç bir xəbər yoxdur və sülhməramlılar artıq bizim qarşımızı kəsmək üçün Laçın koridorundayıq, barrikadalar da qurublar və hər birində ağır zirehli silahlar, pulemyotlar var. Bu şəkildə hər biri bizim qarşımızı kəsib. Amma təbii ki, biz bundan qorxmur, geri çəkilmir və şüarlarımızla davam edirik. Adları sülhməramlı olsa da məramlarının sülh olmadığı ortadadır. Çünki silahla qarşı qoyan onlardır. Amma biz rəqsli mahnılarla, yüksək pozitiv enerji ilə öz aksiyamıza davam edirik və məqsədimizə nail olana qədər aksiyamıza davam etməyə söz vermişik.

Deyərdim ki, bütün gecəni də oyaq qaldıq. Burada hava çox soyuq olmağına baxmayaraq ocaqlar qaladıq. Eyni zamanda bizim yemək, çay və su təminatımız da qaydasındadır. Yəni bəzən internetdən xəbərlər yayılır ki, aclıq aksiyasıdır. Xeyr, heç də elə bir hadisə baş verməyib. Aclıq yoxdur.

Eyni zamanda ambulanslar var. Soyuqlamaq istəyən digər insanlara belə tibbi yardım göstərilir, dərmanlarla, tibbi ləvazimatlarla təchiz olunur. Bu baxımdan heç bir çətinliyimiz yoxdur. Yeganə məqsədimiz, dediyimiz kimi bizim Xankəndində olan qızıl yataqlarımızdır. Təşkil etsinlər ki, biz oraya səfər edək və monitorinqlər aparaq. Çünki bizim təbii sərvətimiz Azərbaycanın gələcəyi və gənclərimizin gələcəyi üçün vacibdir. Bunu qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur".

**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı Eyyub Kərimli:** "Sözsüz ki, bu gün rus sülhməramlılarının özbaşınalığı, orada olan separatçı rejimlərlə əlbir olmağı və orada



baş verən talançılıq haqları ilə onların şərik olmasıdır. Belə ki, bildiyiniz kimi, orada böyük miqdarda qızıl bulaq və dəmirli yataqlarından qiymətli metallar çıxarılır. Bu böyük məbləğdə vəsait edir. Sözsüz ki, onlar orada buna himayəlik etməklə öz gəlirlərini əldə edirlər, onlarla şərik işləyirlər. Bu onların orada iqtisadi maraqlarını təmin edir və bizim monitorinq qrupunun oraya getməsi və ya buna son qoyulması onların marağında deyil.

Digər tərəfdən, sözsüz ki, burada həm də siyasi maraqlar var. Hesab edirəm ki, burada hamı Rusiya dövlətinin siyasi maraqları, bölgədə idarə olunmayan bir durum yaratmaq, Azərbaycanın təzyiqi üçün bundan istifadə etmək, həmçinin Ermənistanla hansısa formada bağlılığını artırmaq və ya Ermənistanı təzyiq altında saxlamaqdır.

Bu gün rus sülhməramlıları öz üzərinə düşən öhdəliklərini və missiyalarını həyata keçirmirlər. Çünki qeyd etdiyim kimi mahiyyətcə erməni separatist qüvvələri orada himayədarlıq edirlər.

Bu gün Ruben Vardanyanın baş nazir təyin olunması böyük bir mətləblərin üstünü açır. Belə ki, baş verən son proseslər onu deməyə əsas verir ki, orada həm də Rusiyanın da maraqlarının təmin olunması niyyətindədir və bu baxımdan rus sülhməramlıları özlərini arxayın hiss edirlər".

**Yeni Müsavat media qrupunun redaktoru, "Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyinin sədri Elşad Məmmədli:** "Rusiya sülhməramlı kontingentinin özbaşınalığı onlar bölgəyə yerləşdirildiyi ilk günlərdən müşahidə olunur. Biz,



ilk günlərdə bunu onların bölgəyə yeni yerləşməsi və üzərlərinə düşən öhdəliklərin icrasında hansısa texniki problemlərin olması kimi qiymətləndirib ilkin vaxtlarda müəyyən qədər liberal, loyal münasibətlər göstərmişik. Ancaq bu liberal loyal münasibət sonsuza qədər davam edə bilməzdi.

Sülhməramlı kontingentin bölgəyə yerləşməsindən artıq iki ildən bir ay da çox vaxt keçir. Bu müddətdə sülhməramlı kontingent bölgədə təhlükəsizliyi təmin etmək əvəzinə bölgədəki separatçı rejimin və Ermənistan ordusunun qanunsuz silahlı birləşmələrinin hansı ki, onlar Qarabağda qalmaqda davam edirlər, son vaxtlar biz onu müşahidə edirdik ki, sülhməramlı kontingent Azərbaycanın ərazilərində qanunsuz şəkildə fəaliyyət göstərən xarici şirkətlərin fəaliyyətinə göz yumur. Onların qanunsuz fəaliyyətinin dayandırılması və ərazidə monitorinqin aparılması üçün hansısa bir monitorinqlər aparmağımıza, Azərbaycanın dövlət qurumlarının, Ekologiya Təbii Sərvətlər nazirliyinin və digər qurumların monitorinqlər aparmasına belə imkan vermirdilər. Həftə ötən həftə biz müşahidə etdik ki, Azərbaycanın dövlət qurumları həmin ərazidə monitorinq aparmaq istəyərkən qanunsuz silahlı erməni birləşmələrinin üzvlərini də öz ətraflarına cəmləyərək orada təxribatlar törətməyə cəhd göstərdilər və bundan sonra bildiyiniz prosesləri yaşanır. Azərbaycanın vətəndaş cəmiyyətinin nümayəndələri Xankəndi-Şuşa, Laçın-Gorus yolunda (bura əvvəllər Laçın dəhlizi adlandırılırdı) sülhməramlıların nəzarət etdiyi yerdə yolu bağlayaraq tələblərini irəli sürürlər.

Ümumiyyətlə, Rusiya sülhməramlılarının niyə belə davrandığını incələdikdə iki istiqamətə daha çox diqqət yetirməliyik. Birinci istiqamət odur ki, bunu məqsədli şəkildə qəsdən bir siyasət olaraq Kremldən aldıqları təlimat üzrə həyata keçirdiklərini deyə bilərik. Bununla onlar bölgədə sanki hegemonluqlarını öz bildikləri kimi həyata keçirdiklərinə dair mesajlar verirlər.

İkinci istiqamət isə odur ki, onlar bölgədə yalnız ermənilərin dəstəkçisi rolunda çıxış etməyi qarşılarına bir məqsəd kimi qoyublar. Təbii ki variantın hər biri Azərbaycan tərəfindən rədd edilir. Buna təbii ki, Azərbaycan ən sərt şəkildə reaksiya bildirir və bildirməkdə də davam edəcək. Çünki Azərbaycan uzun illər ərzində işğal altında yaşayıb və işğalçılığın acı nəticələrini aradan qaldırıb firavan bir həyata keçid almağı hədəfləmişik. Ancaq sülhməramlılar sanki bunu istəmirlər və bölgədə davamlı olaraq konfliktin qalması bunda, Azərbaycan suveren ərazilərinin hansı ki bu gün onların müvəqqəti nəzarətindədir, daim orada öz bildiklərini həyata keçirməklə bir qarşıdurma vəziyyətini saxlamaqda davam etmək kimi görünürlər. Azərbaycan da təbii ki bunun qarşısını almaq üçün həm Azərbaycan Konstitusiyasına, həm də beynəlxalq hüquqi normalara uyğun olaraq bütün səylərini səfərbər edəcək.

Təbii ki, bu prosesdə biz onu da müşahidə edirik ki, Azərbaycan xalqı yenə yumruq kimi birləşib. Necə ki, 44 günlük müharibədə biz bunun şahidi olmuşduq, yenə də sırağagündən başlayan prosesdə artıq bütün xalq ayaqdadır. Biz hadisə yerində aksiyalar keçirdikcə insanların gecə-gündüz prosesi izlədiklərini və nə lazımdırsa onu edəcəklərini bildirirlər. Yəni, bütün qüvvələr əmin olsunlar ki, Azərbaycanı haqq mövqeyindən, haqq yolundan döndürə bilməyəcəklər, Bu istər sülhməramlılar olsun, istərsə də qeyriləri".

**Yaşıl Dünya Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli:** "Rusiya sülhməramlılarının özbaşınalığı açıq-aydın ortadadır. Onlar hələ ki, əsas məqsədlərini biruzə vermirlər.

Bildiyimiz kimi, Rusiya sülhməramlıları 2020-ci il 10 noyabrda imzalanmış Üçtərəfli bəyannaməyə əsasən Xankəndinə daxil olublar. Daha sonra onlar hərbi infrastruktur yaratdılar, həmçinin rus zabitlərinin ailələrinin Xankəndinə köçürülməsi məsələsini ortaya atıblar. Eyni zamanda, bu bəyanatın IV bəndinə əsasən rus sülhməramlılarının qarşısına erməni qanunsuz silahsız birliklərinin Qarabağ iqtisadi rayonundan çıxarılması kimi vəzifə qoyulub. Ancaq rus sülhməramlıları iki il ərzində bu vəzifəni yerinə yetirməyiblər. Rus sülhməramlılarının nəzarəti altında olan Qarabağ ərazilərində qızıl mədənləri talan olunur. Onlar ya buna bilərəkdən şərait yaradır, ya da göz yumurlar. Rusiya sülhməramlıları çıxılmaz vəziyyət yaradıblar. Bütün bunların onların məramının xoş olmadığını göstərir.

Rusiya özünü böyük imperiya hesab edir. Böyük imperiyalar genişlənmədiyi təqdirdə daxili parçalanma baş verir. Rusiyanın məqsədi Qafqazda, xüsusilə Ukraynada möhkəmlənməkdir. Ukrayna xalqı müqavimət göstərərək Rusiyanın bu məqsədinə mane oldu. Rusiya artıq parçalanmaqda olan dövlətdir. Onların niyyəti keçmiş SSRİ ərazisini yenidən bərpa etməkdir. Xankəninə sülhməramlı adıyla gəlsələr də, Qarabağda möhkəmlənmək istəyirlər. Əgər Ermənistanda şovinist hakimiyyət olmasa və erməni xalqı reallığı dərk etsə, rusları Qafqazdan çıxartmaq olar. Lakin onlar hər zaman böyük dövlətlərin nökəri olmağı seçiblər. Vaxtilə də rusların qanadları altında Qarabağı işğal etdilər. İndi isə Rusiyanı da sataraq Qərb istiqamətini seçiblər. Ruslar da onları ürəkdən himayə edə bilmir.

Hesab edirəm ki, rus sülhməramlıları gec-tez reallığı qəbul edəcək və Azərbaycandan öz qüvvələrini geri çəkəcəklər".



Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək İctimai Birliyinin sədri Toğrul Allahverdi: "Biz artıq ikinci gündür ki, ərazidəyik. İki sutka olmağına az qalmasına baxmayaraq, sülhməramlıların komandanı general Volkovun üzünü görə bilməmişik. Bu onu deməyə əsas verir ki, o öz yerində deyil və işinin öhtəsindən gələ bilmir. Volkov Azərbaycan QHT-lərinə qarşı hörmətsizlik edir. Biz QHT-lər olaraq ondan tələb edirik ki, bizə cavab versin və tələblərimizi yerinə yetirsin. Azərbaycan ekoloqları bizə məxsus ərazilərdə monitorinq aparmalıdırlar. Bu necə olur-olsun baş tutacaq.

Biz heç bir təxribata uymuruq və yanlız deyilik. Sayımız 500 yüzdən çoxdur. Bizə axın-axın dəstək gəlir. Heç bir çətinlik bizi bu yoldan döndərə bilməz. Volkov gəlib bizə cavab verməlidir. Tələblərimizi yerinə yetirməyənə qədər buradan gedəsi deyilik. Hər şey əla olacaq.

Rus sülhməramlılarına gəldikdə isə həddindən artıq aqressivdirlər. Onlar heç bir suala cavab vermirlər. Onlar əslində sülhməramlı yox, erməniməramlı və şərməramlıdırlar. Sülhməramlı əlində qumbaraatanla gəncliyin qarşısında dayanmaz".

***Ayşən Vəli***

# Fədakar elm xadimi

Dövlət başçısının Sərəncamı ilə Nərgiz Paşayeva "Şərəf" ordAzərbaycan elminin, tarixinin, mədəniyyətinin dünyada tanınmasına töhfələrini verən, elmi nailiyyətləri ilə uğurlara imza atan ziyalılar zamanımızın seçilən və həmişə ehtirama layiq olan ziyalılarıdırlar. Bu ziyalılar neçə illik ömürlərini elm fədasi olaraq işıqlı gələcəyimiz naminə elm xəzinəmizin zənginəşməsinə həsr edən insanlardır. Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA-nın həqiqi üzvü, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri Nərgiz Paşayevanın gələcəyə hesablanan uğurlu layihələri, ədəbiyyatımızın dünyada tanıdılması və təbliği istiqamətində gördüyü işlər, bir sözlə, elmin inkişafına həsr olunan ömrün məhz, elmimizin inkişafında özünəməxsus yeri var. Bu fədakar əmək öz layiqli qiymətini və dəyərini alır. Belə ki, bir çox mükafatların daşıyıcısı Nərgiz xanım Azərbaycanda elm və təhsilin inkişafında böyük xidmətlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şərəf" ordeni ilə təltif edilib.






UNIVERSITAS OXONIENSIS

Testor ego CANCELLARIUS

Nargiz Pashayeva

fautricem Universitatis studiosissimam
ob munificentiam eximiam
Curiae Cancellarii Benefactorum adscriptam esse
quam ego auctoritate mea et totius Universitatis institui,
ut consiliarii rerum peritia atque benevolentia insignes
Universitati in posterum prosint

Datum Oxoniae die xi mensis Octobris A.S. MMXVIII



### "MƏN KARYERA PİLLƏKƏNİNİN BÜTÜN PİLLƏLƏRİNİ KEÇMİŞƏM"

Nərgiz xanım müsahibələrini birində belə deyir: "Mən 1983-cü ildən - ali məktəbi bitirdiyim ildən işləyirəm. Filologiya fakültəsini qırmızı diploma bitirmişəm. Məni Universitetdə dərs demək üçün saxladılar. Əvvəl assisent, sonra müəllim, daha sonra baş müəllim oldum. 26 yaşında mən artıq elmlər namizədi idim. Daha sonra dosent, kafedranın professoru, prorektor nəhayət, rektor oldum. Amma işləmək, iki körpə uşaqla mühazirə oxumaq asan deyildi. Çox yorulurdum". Belə başlanan ömür yolunun elmi fəaliyyəti zaman ötdükcə öz bəhrəsini verməyə başlayır.

N.Paşayeva hesab edir ki, təhsil insanın xarici görkəminə, simasına da nüfuz edir: "İnsan nə qədər mədənidirsə, bu onun xarici görkəmində də özünü göstərir. Forma gözəlliyi məzmun gözəlliyidir. Məzmun nə qədər gözəldirsə, forma o qədər mükəmməldir. Mədəniyyət həmişə yüksək estetik zövqdur". Beləcə, ömrünü elmə bağlayır və əldə olunan uğurların gördükcə bu onu daha özünə cəlb edir və xəzinədən bəhrələnməyin nə qədər faydalı olduğunu dərk edir. Əlbəttə ki, Nərgiz xanımı bir şəxsiyyət və elm fədaisi olaraq şöhrət tapması ailədən gələn dəyərlərin, bu şəcərənin ruhu ilə sıx bağlıdır. Mir Cəlal Paşayevin ədəbi irsi, oradan aşılanan dəyərlər Nərgiz xanımın formalaşmasından yan ötməmişdir. Nərgiz xanım ədəbi-elmi şöhrəti bu şəcərədən qaynaqlanıb. Əlbəttə ki, elmi nailiyyətləri və elm fədaisi kimi yola çıxmaq, elm axtarışlar aparmaq doğulub boya-başa çatdığı ailənin ənənələrindən qaynaqlanıb. Atası akademik Arif Paşayevin, anası professor Aida İmanquliyevanın elmə xidmət ənənəsini Nərgiz xanım uğurla davam etdirərək, biri-birini əvəzləyən elmi uğurlarına imza atır. Ədəbiyyatşünas-alim, təhsil qurucusu - müəllim, beynəlxalq səviyyəli ictimai xadim... Daim axtarış və nailiyyətlər.

### "İNSANLAR ÖZ ƏVVƏLKİ MAHİYYƏTİNDƏ QALACAQLAR"

N.Paşayevanın "Əgər hər hansı bir epoxaya qayıtmaq imkanınız olsaydı hansını seçərdiniz?" sualına cavabı maraqlı olub: "Mən 300-500 il əvvələ düşmək istərdim. Orada hər şeyə baxmaq maraqlı olardı. Xüsusən, hansı incəsənət növlərinin yarandığına baxmağa. Maraqlı olardı ki, gələcək insanın bədii düşüncələri, təfəkkürü hansı metodlar və imkanlar hesabına ifadə olunacaq. Amma bir şeyə şübhə etmirəm: İnsanlar öz əvvəlki mahiyyətində qalacaqlar ". Deməк, ziyalı bir insanda öyrənmək keçmiş, bu gün və gələcəklə bağlı düşüncələr fövqündə idrakın gücünü görmək maraq doğurur.

Nərgiz Paşayeva maraqlı və zəngin bir tərcümeyi-halın müəllifidir. 13 dekabr 1962-ci ildə Bakı şəhərində anadan olan Nərgiz xanım 1968-1978-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alıb. 1978-ci ildə BDU-nun Filologiya fakültəsinin əyani şöbəsinə daxil olaraq, 1983-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. 1983-cü ildə əyani aspiranturaya qəbul olmuş və "Sabirin novatorluğu" adlı dissertasiya işini vaxtından əvvəl tamamlamış və müvəffəqiyyətlə müdafiə edib. 23 sentyabr 1987-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 1987-ci ilin mart ayından Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında assistent, müəllim, baş müəllim, dosent vəzifələrində, 1994-2008-ci illərdə isə Bakı Musiqi Akademiyasının "Dil və ədəbiyyat" kafedrasının müdiri vəzifəsində çalışıb.

2004-cü ildə "Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)" adlı doktorluq dissertasiyası işini müvəffəqiyyətlə müdafiə edib. 11 fevral 2005-ci ildə filologiya elmləri doktoru alimlik dərəcəsinə, 30 mart 2005-ci ildə isə professor elmi adına layiq görülüb. 2006-2008-ci illərdə Bakı Dövlət Universitetində Beynəlxalq əlaqələr üzrə prorektor vəzifəsində işləyib. 2006-cı ildən BDU-nun nəzdində fəaliyyət göstərən filologiya elmləri doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının sədridir. 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 23 iyun 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2886 saylı sərəncamı ilə M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına rektor təyin olunub. 2009-cu ilin oktyabr ayından Bakı Dövlət Universitetinin "Klassik Azərbaycan ədəbiyyatı" kafedrasının müdiridir. 2 may 2017-ci ildə AMEA-nın həqiqi üzvü, 8 iyun 2018-ci ildə isə AMEA-nın vitse-prezidenti seçilmişdir. 27 fevral 2019-cu ildə Nərgiz Paşayeva akademik V. Sadovniçinin təqdimatına əsasən, Rusiya Təhsil Akademiyasının akademiki (xarici üzvü) seçilib.

Fədakar əməyinin və elmi nailiyyətlərin nəticəsi olaraq 18 noyabr 2008-ci ildə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Rusiya Beynəlxalq elmi və mədəni əməkdaşlıq Mərkəzi tərəfindən Rusiya-Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərində göstərdiyi xidmətlərə görə "Dostluqda göstərdiyi xidmətlərə görə" nişanı ilə təltif olunub. Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2009-cu il tarixli Sərəncamı ilə Azərbaycan elminin inkişafında göstərdiyi xidmətlərə görə, Əməkdar elm xadimi fəxri adına layiq görülüb. Macarıstanın Prezidenti Pal Şmidtin 11 mart 2012-ci tarixli Sərəncamı ilə professor Nərgiz Paşayeva 30 aprel 2012-ci ildə Macarıstanın dövlət mükafatı ilə - "Xidmətlərə görə" Komandor xaç ordeni ilə təltif edilib. Azərbaycan və Fransa əməkdaşlığının inkişafında göstərdiyi aramsız fəaliyyətinə görə 2013-cü ildə zabit dərəcəli "Akademik Palma" fransız ordeni ilə təltif olunmuşdur. Bu yüksək mükafatı Fransanın Azərbaycandakı səfiri Paskal Monye təqdim edib.

19 aprel 2017-ci ildə müstəqillik illərində Azərbaycanda elm və təhsil sahəsində həyata keçirilmiş mühüm beynəlxalq layihə olan Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsindəki müstəsna xidmətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Qızıl medalına layiq görülmüşdür.

### "OKSFORD UNİVERSİTETİNİN ŞƏRQŞÜNASLIQ FAKÜLTƏSİNDƏ APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİ DÜNYANIN DİGƏR ALİ MƏKTƏBLƏRİ ÜÇÜN BİR ÖRNƏKDİR"

Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi Mərkəzinin və onun Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın həyata keçirdiyi və müstəqil Azərbaycanın dünya miqyasında tanıdılmasına xidmət edən möhtəşəm, fundamental, tarixi həqiqətlərə söykənən işlər, sözün həqiqi mənasında, tarixi hadisələrdir. Nərgiz xanım Paşayeva çıxışlarının birində qeyd edir: "Oksford Universitetinin Şərqşünaslıq fakültəsində aparılan elmi-tədqiqat işləri dünyanın digər ali məktəbləri üçün bir örnəkdir. Qərb dünyasının ən nüfuzlu bu tədris ocağında hər hansı həqiqəti dünyaya çatdırmaq istəyən xalq, əvvəlcə öz qədim və zəngin keçmişini ortaya çıxarmalı, əsaslı elmi işlər aparmalı, ciddi və zəhmətkeş tələbələr yetişdirməlidir. Yalnız bundan sonra həmin xalq dünyada elm sahəsində mövqe tutub, söz deməyi bacara bilər".

Bütün bunlarla yanaşı, bir sıra kitab və monoqrafiyalarını müəllifidir. "İnsan bədii tədqiq obyekti kimi (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)", "Antik ədəbiyyat tarixi", "Qədim Roma ədəbiyyatı", "Dünya deyilən sənmişsən", "Ədəbiyyatda lirik növ" "Şərq və Qərb: ümumbəşəri ideala doğru: fəlsəfi etüdlər" və s. müəllifidir.

Onun nailiyyət və uğurları olduqca zəngindir. Onun həyat yolunu səhifələdikcə bu ömrün zəngin irsində fədakar bir elm xadimlərinin nailiyyətləri ilə tanış olursan.

***Zümrüd BAYRAMOVA***



# Volkov-Vardanyan tandemində KREML İZİ

***General Volkovu idarə edən, daha doğrusu, davranışını kontrol edən, onun etdiklərinə nəzarət edən yoxdurmu? Təkcə elə bu sual bir çox məqamlara aydınlıq gətirmək üçün kifayət edir, çünki nəyin necə olması məhz bu suala cavab axtarmaqla aydın olur. Əvvəla ona görə ki, hadisələrin gedişatına təsir imkanlarının, potensialların araşdırılması ilə qaranlıq məqamlar üzə çıxır. Digər tərəfdən də Volkov və Vardanyan kimilərin məhz kimliyi, nəçi olmaları bəlli olmaqla məramları da, məqsədləri də artıq gizli qalmır, bu isə bizim üçün, Azərbaycan üçün olduqca vacibdir.***

Əlbəttə ki, heç bir halda hanısa bir general, özü də sülhməramlı kontingentinin generalı yalnız öz ağlı, öz istəyi, yaxud öz iradəsi ilə kimlərə istəsə himayədarlıq etmək imkanına malik ola bilməz, malik deyil də. Düzdür, nəinki generalın, hətta sülhməramlılar arasında sıravi bir hərbçinin də himayədarlıq arzusu ola bilər. Haqlı, ya da haqsız, yaxud sülhsevər ya da separatçı, terrorçu olmasından asılı olmayaraq kimə isə arxa durmaq həvəsi də mümkün haldır. Amma bu həvəs, ya da arzu onlara heç bir haqq vermir və kimə istəsələr himayədarlıq etmək onların nə səlahiyyətləri, nə də missiyaları daxilində belə deyil. Deməli, hansısa qüvvənin, yaxud hansısa mərkəzin proseslərin nüvəsində olması artıq şübhə doğurmur.

Bir halda ki, Volkovun təkəbbürlü davranışları diqqəti çəkir, deməli, onun erməni separatçılarına və İran diversantlarına himayədarlığının arxasında nələrsə, daha dəqiq desək, hansısa qüvvə dayanır. Ümumiyyətlə, bu generalın hərəkətlərinin pərdə arxasında nəyinsə olduğu zərrə qədər şübhə doğurmur. Bir sülhməramlı hərbçi, yaxud general humanitar nöqteyi-nəzərdən kimlərinsə istəklərinə şərait yaratmaq fikrinə düşməsi başa düşülə bilər, özü də rəhm etmək niyyəti ilə olarsa anlaşılar, amma böyük bir siyasətə alət olaraq onun həddini aşması başadüşülən deyil və təsadüf, ya da sıradan bir addım sayılmır.

Bəllidir ki, Volkov özü özünü bölgədə sülhməramlılara nə rəhbər, nə də general təyin edə bilməz, onun belə bir səlahiyyəti yoxdur, Kreml onu öz istədiyi "görəvlə" görəvləndirib. Belə olan halda, qeyd etdiyimiz sual yenə də öz yerini alır və maraqlıdır, Moskvanın xəbəri olmaya bilərmi Volkovun davranışlarından? Bunu özü desə belə kimsə inanarmı? Əlbəttə inanmaz, çünki onun Moskvaya, şəxsən Rusiya prezidentinə, Vladimir Putinə hesabatlı olduğunu hamı yaxşı bilir. Yaxşı bilir ki, hər bir addımından belə öncə Kremlin "xeyir-duasını" almalıdır. Sirr deyil ki, Volkova müvafiq vəzifə tapşıran onun hər bir hərəkətindən əvvəldən xəbərdardır və hətta hansısa hərəkətinə, yaxud davranışına görə ən azından məsuliyyətini də dərk edir.

Maraqlıdır, bir halda ki, Volkova müvafiq tapşırığı Moskva verib və onun sülhməramlı kimi fəaliyyəti Rusiya hökumətinin nəzarəti altındadır, o zaman niyə həmin generalın uyğunsuz fəaliyyətinə, davranışlarına Kreml reaksiya vermir və ya vermək istəmir? Elə bu sual və həmin sualın cavabı özü də təsdiq edir ki, Vardanyanla eyni ağılda, eyni düşüncədə olan Volkovun davranışlarının, tərzinin, bir sözlə, Vardanyan və Volkov tandeminin Kreml izləri olduğu qənaətinə gəlməkdə hər kəs haqlıdır. Düzdür, bu, təəssüf doğurucu məqamdır, heç də arzuolunan hal deyil, amma əfsus ki, reallıqdır. Məhz bu reallıq, yəni Volkovun atdığı addımlar, işğaldan azad edilmiş ərazilərimizdə, Qarabağda davranışı, erməni separatçılarını və iranlı diversantları dəstəkləməsi və buna rəsmi Moskvanın müşahidəçi mövqeyi, heç bir reaksiya verməməsi hazırda Azərbaycan-Rusiya münasibətlərinə çox ciddi zərbədir. Bununla yanaşı, Moskva nəzərə almalıdır ki, rus generalının, rus sülhməramlısının bu tərzi, diversantları, separatçıları, terrorçuları, ən azından təxribatçıları belə dəstəkləməsi və buna Kremlin göz yumması Azərbaycan cəmiyyətində Rusiyaya qarşı etibarın durmadan azalması deməkdir.

Bilirik ki, Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti dislokasiya olunmuş Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə ölkəmizin müxtəlif strukturlarının nümayəndələri arasında danışıqlar aparılıb. Nəticədə, tərəflər razılığa gəliblər ki, dekabrın 10-dan İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Əmlak Xidməti və "AzerGold" QSC-nin mütəxəssisləri tərəfindən Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində faydalı qazıntı yataqlarının qeyri-qanuni istismar faktlarının qarşısının alınması üçün ilkin monitorinqlərə başlanılsın. Azərbaycan Respublikasının mülkiyyətində olan Qızılbulaq qızıl yatağının və Dəmirli mis-molibden yatağının tədqiqi nəzərdə tutulurdu, hansı ki, hər iki mədəndə qeyri-qanuni istismar qeydə alınır. Sözsüz ki, bu fakt ölkənin təbii sərvətlərinin açıq şəkildə talanması deməkdir və belə bir talan yerin təkinin vəhşicəsinə işlənməsi nəticəsində ekoloji nəticələrin ağırlaşdırılması kimi qiymətləndirilir. Məsələ burasındadır ki, Azərbaycan tərəfi Qarabağ separatçılarının və onların himayədarlarının qanunsuz fəaliyyətlərinin dayandırılması tələbi ilə dəfələrlə Rusiya Sülhməramlıları Kontingentinin komandanlığına müraciət etsə də, əksər hallarda onlara cavab verməkdən belə boyun qaçırılıb. Sülhməramlılar azərbaycanlı mütəxəssislərin öz işlərini görmələrinin qarşısını alırlarsa, daha doğrusu, mədənlərə baxış keçirmək, dövlətə və təbiətə dəyən zərərin miqdarını müəyyən etmək üçün fəaliyyət göstərmələrinə mane olurlarsa, deməli, onlardan yataqların işlənməsini dayandırmaq, konkret hərəkətlər gözləmək artıq yersizdir. Digər tərəfdən də, Qarabağda yaşyan ermənilərin Moskvanın həmin əraziyə göndərdiyi oliqarx Ruben Vardanyan tərəfindən qızışdırılması, aksiyaların təşkili təsdiq edir ki, burada Kremlin öz dəsti-xətti var. Bəlkə də separatçılar Azərbaycan tərəfi ilə danışıqlar aparmaq niyyətində idilər, amma rəsmi Bakının separatçılarla heç bir danışığı ola bilməz. Azərbaycan tərəfi nə Moskvadan "verbofka" olunan hiyləgər Vardanyanla, nə də qudurmuş, quduz separatçılarla danışıq etmək haqqında düşünmür belə. Xarici İşlər Nazirliyi Azərbaycan nümayəndələrinin bu yataqlara maneəsiz çıxışını təmin etmək çağırışı ilə nota göndərib.

Əgər xəbərdarlıqlar, yaxud hansısa formada müraciətdən nəticə çıxarılmırsa, deməli, vətənimizin sərvətləri bilərəkdən, göz görə-görə talanır. Özü də Vardanyanın bu arada Qarabağ ərazisində məskunlaşmaq, yaşamaq qərarı, özünü qondarma, dırnaqarası "dövlət naziri" elan etməsi təsdiq edir ki, Rusiya Volkov-Vardanyan tandeminin köməyi ilə ölkəmizin milli sərvətlərini sərbəst şəkildə talayır və Qarabağ iqtisadi rayonunda ekoloji terror təşkil edir. Ən gülünc və absurd olan isə sülhməramlıların bu torpaqların həqiqi sahiblərinə öz torpaqlarında hərəkət etməyi qadağan etmək niyyətidir. Sülhməramlıların ünvanına deyilənlər rusların xətrinə dəyirsə, onlara bir sıra məsələlər barədə xatırlatma edilə bilər. Bəlkə də, 366-cı moto-atıcı alayın törətdiyi qırğınlar barədə düşünməyin, bunu ruslara xatırlatmanın da tam zamanıdır? Ələlxüsus 20 yanvar faciəsinin də yadlarına salınması gərəkir ki, Azərbaycan xalqının artıq ötən əsrdə böyük təcrübə qazandığını anlasınlar.

Azərbaycanlı fəalların və qeyri-hökumət ekoloji təşkilatların Şuşaya gedən yol hissəsində keçirdiyi etiraz aksiyası zamanı lentə alınan görüntülərdə sülhməramlıların pulemyotlar qurması, ağır hərbi texnikanı hadisə yerinə yığması bəlkə də bir hədə kimi görünə bilər. Məsələ burasındadır ki, jurnalistlərin və digər insanların həmin ərazini tərk etməmələri, aksiyanı davam etdirmələri onların, tədbir iştirakçılarının heç nədən çəkinmədiklərini açıq-aydın göstərir və təsdiqləyir. Artıq rəsmi Moskva başa düşməlidir ki, nə ötən əsrin 90-cı illəridir, nə də Rusiya həmin dövrün Sovet imperiyası. Onsuz da Ukrayna ilə müharibə Rusiyanın da yaratdığı mifləri darmadağın etdi. Üstəlik, az qala bütün dünyanın sanksiyalarına məruz qalan Rusiyanın özü haqqında düşünməsi daha doğru qərar olar, çünki kimlərinsə işinə qarışmağa bu ölkənin daha amanı yoxdur. Əksinə, bu gün Azərbaycanla və Türkiyə kimi bir ölkə ilə yaxşı münasibətlər Rusiyaya elə hava, su kimi vacibdir. Bu xüsusda da qeyd etmək yerinə düşərdi ki, Volkovun işğaldan azad edilmiş Qarabağda qanunsuz hərəkətləri Rusiya-Azərbaycan münasibətlərinə ciddi zərbə vura bilər. Rusiyanın prioritetlərini müəyyənləşdirməsinin artıq vaxtı çatıb. Kreml ciddi seçim etməlidir, ya xəyanətkar ermənilərin, Volkovun və Vardanyanın zənginləşməsi, ya da Azərbaycanla və Türkiyə ilə münasibətləri zədələməmək. Hər bir halda sözügedən məsələdə Kremlin izinin olduğu artıq özünü göstərir və bundan sonra da hansı iz buraxacağı izlənilir.

***İnam Hacıyev***

## Əhməd İsmayılov media üzrə mütəxəssis ilə görüşüb



Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov İordaniyadan olan media üzrə mütəxəssis ilə görüşüb. SİA xəbər verir ki, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə həyata keçirdikləri AİDA proqramı çərçivəsində Azərbaycanda səfərdə olan İordaniyalı media mütəxəssisi Mohammad Saleh Abdullah Al-Malkavi ilə görüşüb.

## Laçın-Şuşa yolunda etiraz aksiyasına daha çox insan qoşulur



Laçın-Şuşa yolunda Azərbaycan ekoloqları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və fəalların keçirdiyi etiraz aksiyası davam edir. Ölkənin ərazi bütövlüyünün müdafiəsi və Azərbaycanın təbii resurslarının qanunsuz istismarının dayandırılması ilə bağlı ədalətli tələblərə dəstək olaraq ölkənin müxtəlif bölgələrindən getdikcə daha çox insan gəlir.



AZƏRTAC-ın müxbiri hadisə yerindən xəbər verir ki, fəallar general-mayor Andrey Volkovun aksiya yerinə gəlməsini tələb ediblər. Aksiyanın keçdiyi ərazidə, işğaldan azad olunmuş bütün torpaqlarda olduğu kimi, Azərbaycan bayraqları ucaldılıb. Aksiya iştirakçılarının alqışları ilə üçrəngli bayraq bura gətirilən tikinti kranının vasitəsilə dalğalandırılıb.

ANALİTİK TƏHLİL

# Ekoloji terrora son!



***Ermənilərin Azərbaycan torpaqlarında sərvətlərimizi talaması və bununla bağlı olaraq iki gündür, vətəndaşlarımızın Şuşa-Laçın yolundakı etiraz aksiyaları fonunda düşünürəm ki, bir millətin xislətinə bu qədər acgözlük, tamahkarlıq, talançılıq, nadanlıq, alçaqlıq necə sığır, İlahi! Kaş ki bunu anlaya bilərdik. Qonşuluqdan kənar, bizə qonşu olduqları yerdə tar-mar olmalı qonşularımızın yəni həyatın hansısa bir anında gözləri doyacaqmı, özlərinin olanları ilə qane olacaqlarmı? Düşünürəm ki, heç vaxt. Çünki bunların xəmiri acgözlüklə yoğrulub. Bir də axı özlərində nə var ki? Olsa idi, heç olmasa, bir az tox olardılar. Ta qonşunun torpağından özlərinə "vətən" düzəltməzdilər. Qonşunun sərvətləri hesabına "adam" olmazdılar. Bu qədər yetməz? Bəs nə vaxtadək? Nə üçün ta çəkilib yerlərində oturmurlar. Axı biz bunlara həyatın sərt üzünü də göstərdik.***




Hə, aydındır. Çünki özləri yelbeyindir, havadarları isə qızışdırıcı. Bunlar da həmişə olduğu kimi, boş başları ilə qızışdırıcıların tələsinə düşürlər. Lakin anlamaq istəmirlər ki, kimlərinsə əlində oyuncaqdırlar. Anlayanda isə gec olacaq. Necə ki, Qarabağda 44 gündə başlarına od yağdırıldı, gözlərini aça bilmədilər. Bundan sonra hər zaman da belə olacaq. Lakin axı yenə ağıllarını bunları qarşıya verib arxalarında dayanmayanların, 44 gündə telefonlarını açmayanların ağlına verirlər. Düşünmürlər ki, su meymunun boğazına çatanda balasını ayağının altına qoyur misalı, onlar geri çəkilib, heç bunları adam yerinə də qoymayacaqlar. Bunlar da 44 gündəki kimi məhv olub, düşdükləri günə ağlayacaqlar.

## Topxanadan başlanan talançılıq




Bu gündən dünənə baxanda erməni adlı millətin qanının xarab olduğundan savayı ağıla başqa bir fikir gəlmir. 1988-ci il idi. Süfrəmizin qırıq-quruğu ilə qarnını doyuranların, daha sonra özlərinə yavaş-yavaş yer edənlərin səsinin Topxana meşəsindən gəldiyini eşitdik. Eşitdik ki, daraşıb qırıb tökürlər.

Vurğulayım ki, qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qaraağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi, meşənin heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar vardı.

Bəli, eşitdik ki, işğalçı ermənilər sərvətlərimizi talan edir, meşələrimizi qırıb daşıyırlar. Təxmini məlumatlara görə, Topxanadan 2000 ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib.

Elə Birinci Vətən Müharibəsinə aparan yolun başlanğıcı da sərvətlərimizin talan edilməsi, ekologiyamıza vurulan milyonlarla manat dəyərində ziyan oldu. Yaxşı yadımdadır, o vaxt xalq qalxmışdı ayağa, hər yerdə etiraz aksiyaları keçirilirdi. Hər kəs ermənilərin bu özbaşınalığını pisləyir, lənətləyir, təcili şəkildə onların soyğunçuluğuna son qoyulmasını tələb edirdilər.

Bunun ardınca isə ermənilərin torpaq iddiaları başlandı. Bütün bu sərvətlərin birdəfəlik sahibi olmaq üçün işğal planını həyata keçirməyə başladılar. Və istəklərinə nail oldular da. Çünki 1990-cı illərdə ölkəmizə rəhbərlik edənlər də onlar ağılda idi. Onların havadarlarının boş vədlərinə bizimkilər də inanmışdılar. Bu səbəbdən də torpaqlarımızın bir qisminin ermənilərə verilməsi və qarşılığında hakimiyyət kürsülərində əbədi qalacaqları vədləri ilə Vətən torpaqalarının satılmasına imza atmışdılar.

Birinci Qarabağ müharibəsində əliyalın insanlar torpaqlarımızın müdafiəsinə qalxdıqları halda, canlarından keçəcəklərini, ancaq torpaqlarımızdan vaz keçməyəcəklərini şüar edib düşmənlə üz-üzə dayandıqları zaman, sən demə, o torpaqlar çoxdan satılıbmış. Biz isə müdafiəsiz şəklində mübarizələrə davam edirdik. Lakin çox təəssüf... İtirdik o topraqları, minlərlə şəhid verdik, qazi qazandıq. Düz 30 il həmin torpaqlar bağrımızdan qoparıldı. Evimizdən-eşiyimizdən didərgin salındıq. Qapılarımız bağlı qaldı. Yurdumuz dağıdıldı, yuvamız uçuruldu. Qapılarımız qıfıllandı. Qəbiristanlıqlarda uyuyan əzizlərimizin qəbirləri orada qərib qaldı. Taleyimizə yazılan məcburi köçkünlük illərində ata-analarımız, baba-nənələrimiz "torpaq, yurd",- deyə-deyə qəribçilikdə dünyalarını dəyişdilər. Qərib qəbir oldular. 30 illik bir acı yaşadı bu xalq. Həsrətlə, hicranla dolu bir həyat...

## 44 günlük dərsdən "2" alanlar...

Adətən "2" layiq olduğu qiyməti aldığı üçün insanı ayıldan, onu silkələyən bir vasitədir. Geridə qalmısan, çağırışıdır. Oyan, dərsini daha yaxşı çalış, deməkdir. Görünür, 2020-ci ilin 44 günlük müharibəsində dərslərindən "2" alan ermənilər nə qədər axmaqdılarsa, bu "2"-nin fərqinə varmaq istəmirlər. Düşünmürlər ki, aldıqları bu qiymət, üstəlik qaldırdıqları ağ bayraq fonunda bütün dünyaya özlərini rəzil etdilər. Azərbaycana bu dəfə də 90-cı illərdəki zərbəni vuracaqlarını düşündükləri təqdirdə belə aşağı qiymət almaq və biabır vəziyyətinə düşmək görünür, bunlara təsir etməyib ki, qalxıb görün bir yenidən hansı risklərə gedirlər. Azərbaycan







ərazilərində talançılığa əl atırlar. Ağılları gedir yenə də 90-cı illərə. Topxana meşəsinə, Zəngilanın çinar meşələrinə, qızıl yataqlarına. Ta düşünmürlər ki, 90-cı illər deyil. Aradan 30 ildən artıq zaman keçib. 44 gündə isə bunu bir daha əminliklə təsdiq etdilər. Di gəl ki, bunlarda problem odur ki, gözləri sadəcə baxır, lakin görmür. Ağılları da kəsmir ki, azacıq gördüklərindən nəticə çıxarsınlar. Ağılları o boş havadarlarına verib yenə özləri üçün problem yaratmasınlar.

Elə buna görədir ki, yenə də Azərbaycan ərazilərində talançılığa başlayıblar. Ekologiyamıza 30 ildə vurduqları ziyanı bizim işğaldan azad edilmiş torpaqlarımızda davam etdirmək Rusiya sülhməramlılarının haraya baxdıqlarını açıqca ortaya qoyur. Ta burada izaha, şərhə ehtiyac yoxdur. Deməli, bu sülh yox, müharibəməramlıların bu əməllərdə xüsusi payları var ki, bu kimi hərəkətlərə göz yumurlar. Belə olan halda isə təbii ki, problemlər yaranır.



## Etiraz aksiyası 30 ilin o başında yox, bu başında olduğumuzu torpaqlarımızın sərvətlərinə xor baxanların gözünə oxuyur

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, fəalların, könüllülərin iştirakı ilə Laçın-Şuşa yolunda keçirilən etiraz aksiyası ikinci gündür ki, davam edir.

Bu aksiyaya ölkənin müxtəlif regionlarından olan fəallar qoşulur. Etirazçıların tələbləri dəyişməzdir: Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə son qoyulmalı, aksiya iştirakçılarının Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına baş çəkmələri təmin edilməli, Rusiya sülhməramlı kontingentinin komandanı general-mayor Andrey Volkov aksiya keçirilən yerə gəlməlidir. Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

İki gündür, xalqımızın nümayəndələri payızın bu soyuqlu-sazaqlı havasında Laçın-Şuşa yolunda sülhdən və insanlıqdan əsər-əlaməti olmayanlarla üz-üzədirlər. Televiziya və internet üzərindən izlədiyimiz aksiya könlümüzü qürur hissi ilə doldurur. Aksiya iştirakçılarının "Şəhidlər ölməz, Vətən bölünməz", Azərbaycan oyaqdır, sərvətinə dayaqdır", "Qarabaq Azərbaycandır!" kimi şuarlar, Vətən, torpaq haqqında mahnılar səsləndirmələri, mətbuat nümayəndələrinə müsahibələr vermələri, tələbləri yerinə yetirilənə qədər gözləyəcəklərini bildirmələri İkinci Vətən Müharibəsində insanların birlik və həmrəyliyini gözlər önünə gətirir. Hər bir Azərbaycan vətəndaşının 44 gündə Ali Baş Komandanın əmrini gözləmələri, Qarabağ üçün canlarından keçəcəklərini bildirmələri, gecə-gündüz ayıq-sayıq dayanıb hadisələri izləmələri nə qədər qürur yaradırdısa, bu günlər torpaqlarımıza ekoloji zərbə endirənlərə qarşı etiraz aksiyasındakı insanların səbri, əzəməti də bir o qədər qürur doğurur.

Bəli, nə Azərbaycan otuz il əvvəlki Azərbaycandır, nə də azərbaycanlılar 30 il əvvəlki insanlar deyil. Düzdür, hünərimizi, mübarizliyimizi ata-babalarımızdan almışıq, onların qanından hopub qanımıza vətənpərvərlik, lakin biz həm də 30 ildir ki, müstəqil ölkənin vətəndaşlarıyıq. Hüquqlarımızın müdafiəsində dayanan, insan amilini dövlət siyasətinin əsas prioritetinə çevirən bir ölkənin vətəndaşlarıyıq. Kim bizim ərazimizə yaxın gələ bilər, kim bizim sərvətlərimizi talaya bilər? Bu, 70 il sovet dövründəki Azərbaycan deyil ki, biz çalışaq, yetirək bitirək, başqaları yeyə. Sərvət bizə aid ola, sahiblənən özgəsi. Bütün bunlar keçmişdə qalıb. Hər zaman ürək sıxıntısı ilə xatırladığımız və xatırlayacağımız keçmişdə.

Bu gün bizi bütün dünya əzmimizlə, hünərimizlə, iqtisadi gücümüzlə, milli ordumuzla, birlik, həmrəyliyimizlə, ən əsası isə xalqının arxasında qətiyyətlə dayanan Ali Baş Komandanımızla, dövlətimizin layiqli rəhbəri ilə tanıyır. Bizi Zəfər xalqı kimi tanıyır... Bu Zəfəri həm siyasi, həm də döyüş meydanında qazanan oğullarımızı tanıyır.

## Rusiya sülhməramlıları qırmızı xətti keçdi, XTQ onlara hədlərini göstərdi

SSRİ dövründə Azərbaycan gəncləri fəhlə batalyonlarında əsgəri xidmət keçirdilər. Rusiya kimi nəhəng, bütün dünyaya güçlü ordusu ilə nümunə olan dövlət bəli, bizim oğullarımıza bu ordunun sıralarında əsgərlik etməyi, hərbin sirlərinə bələd olmağı rəva bilmirdi. Ona görə rəva bilmirdi ki, bir türkün qeyrətinə, qüdrətinə, coşğunluğuna bələd idi. Bütün bu keyfiyyətlərin üzərinə üstəlik hərbi təlim gələrdisə, nəticəsi nə olardı. Bu baxımdan da bizim igid övladlarımız fəhləlik edirdilər. Düz iki il rusa fəhləlik etməklə əsgəri xidmətlərini başa çatdırırdılar.

Lakin nə zamanın, nə də dövranın damarlardan axan qan amilini dəyişməyə gücü çatmır. Bunu anlamaq lazım idi, anlayırdılar da. Lakin xatırlamağa çalışmırdılar. Çünki bələd olduqları qan daşıyıcılarının əsarətdə qalmasını daha çox məsləhət bilirdilər, nəinki hansı bir elmin sirlərinə bələd olmalarını.

70 ilin əsarətini bu qanın coşmasına əngəl etməyə çalışsalar da, sonda bu 70 il elə bu qanların coşması ilə sona yetdi. Azadlıq, müstəqillik arzusu damarlarda rus imperiyasının bütün zamanlarda qorxduğu qanı coşduranda onlar axırlarının çatdığını elə gözəl bir şəkildə anladılar ki... Və zaman göstərdi ki, bu, həqiqətən də düşündüyümüz kimi idi. Bu coşan qanla 70 illik paslanmış, qopması çətinləşən zəncir qoparıldı. Milyonlarla güclü, qüvvətli qollar azad edildi. Bu qollar 1918-ci ildə əlimizdən zorla alınan müstəqilliyin bərpası üçün gücünü göstərdi. Bundan sonra başımıza gətirilən bəlaların, 30 il torpaqlarımıza həsrət qalmağımızın səbəbində həmin o imperiya qalıqları dayansalar da, biz yenidən kimliyimizi onlara sübut edə bildik. 2020-ci ilin 44 günlük müharibəsində bir zamanlar kiçik bir dövlət kimi işğal etdikləri Azərbaycanı, sərvəti o başından bu başınadək taladıqları ölkəni və bu ölkənin vətənpərvər övladlarını gördülər. Düşmənə sitəm çəkən, onları diz üstə çökdürən oğulları gördülər. Coğrafi mövqeyinə çox yaxşı bələd olduqları Şuşanı bu qəhrəman oğulların qol gücü ilə işğaldan azad etməsini gördülər. Və düşündülər ki, görəsən bunlar harada hərbin sirlərinə, taktikalarına bələd oldular. Axı biz onlara fəhləlikdən savayı heç nə öyrətməmişdik.

Bəli, söhbət türkdən, türk oğlu türkdən gedirsə, əlavə izaha ehtiyac yoxdur. Həmin o oğullar sülhün nə olduğunu bilmədikləri təqdirdə sülhməramlı kimi torpaqlarımıza yerləşdirilən, aradabir qırmızı xətti keçənlərin sinəsindən ehmalca itələyərək onlara həddi və hədlərini göstərənlərdir. Və bu hədd istənilən vaxt yenidən göstərilə bilər, bunu da unutmamaq onlara çox sərf edər.

## 10 noyabr-üçtərəfli Bəyannaməyə qarşı çıxanlar "Qarabağ" dramının üçüncü pərdəsini qaldıra bilərlər

2020-ci ilin 44 günlük İkinci Vətən Müharibəsi ermənilərin ağ bayraq qaldırması ilə nəticələndi. Və 10 noyabrda Azərbaycan, Rusiya Federasiyası və Ermənistan arasında imzalanan Bəyannamə ilə başa çatdı. O Bəyannamə ki, orada sülhməramlıların işinin nədən ibarət olacağı, ermənilərin isə üzərinə düşən öhdəlikləri yerinə yetirmələri ilə bağlı bəndlər yer alır. Lakin görünür ki, bu Bəyannamə elə kağız üzərində qalmaqdadır. Nə Rusiya sülhməramlıları öz vəzifələrinin öhdəsindən gələ bilir, nə də ki, ermənilər üzərlərinə düşən öhdəlikləri yerinə yetirir, daha doğrusu min bir bəhanə ilə boyun qaçırırlar.

Bu günkü etiraz aksiyalarında mətbuat nümayəndələrinin suallarını sükutla qarşılayan, operatorun Şuşa-Laçın yolunu kameranın yaddaşına köçürmək istəyərkən əllərini qaldırıb kameranın qarşısına tutaraq yolun çəkilməsini əngəlləmək istəyən sülhməramlılar görəsən bu gücü haradan alırlar? Müqəvva kimi dayanıb tərpənməyən sülhməramlılar bizim gözümüz qarşısında sanki bir obraz sərgiləyirlər. Lakin biz orada olmayanda törətdikləri əməllərdən necə, xəbərsizmi hesab edirlər bizi?

Aksiya davam edir. İştirakçılar Rusiya sülhməramlı kontingentinin komandanı general-mayor Andrey Volkovun gəlib onların suallarına cavab verənədək davam edəcəyini bildirirlər. Volkov isə üzə çıxmaq istəmir. Bunun səbəblərinin isə məlum olan və olmayan tərəfləri vardır. Bu da aydındır. Lakin Volkov gəlməli, ermənilərə azərbaycanlıların sərvətini talamaq üçün yaratdığı şəraitə ayırdığı vaxtdan bir qədər də az vaxt sərf edib azərbaycanlıların bu talançılığın qarşısını almaq üçün monitorinq keçirmələrində nə üçün sülhməramlıların müqavimət göstərdiyini izah etməlidir. Əks təqdirdə bu aksiya "Qarabağ" dramının üçüncü pərdəsinə çevrilə bilər.

***Mətanət Məmmədova***

# Azərbaycana və ya Türkiyəyə qarşı məkrli planları olanlar bilməlidirlər ki...

"Regionda sabitliyin, təhlükəsizliyin qarantı olan Azərbaycan-Türkiyə münasibətlərinin tarixi Zəfərimizdən sonra daha da inkişaf edərək artıq müttəfiqlik səviyyəsinə yüksəldiyi rəsmi şəkildə dünyaya bəyan edildi. 44 günlük İkinci Qarabağ müharibəsi bir daha təsdiqlədi ki, dünyada Azərbaycan və Türkiyə qədər biri-birinə yaxın olan, sevincli və kədərli anlarını birlikdə bölüşən ikinci dövlət ola bilməz. Müharibənin başlandığı gündən dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayaraq sonadək ölkəmizə siyasi və mənəvi dəstəyini əsirgəməyən qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad edilmiş ərazilərimizə ilk səfər edən, eyni zamanda, ilk uçuşu həyata keçirən xarici ölkənin dövlət başçısıdır. Prezident İlham Əliyevin çıxışlarında bu məqam xüsusi qeyd olunur ki, dost ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad edilmiş ərazilərimizə üç dəfə səfər edərək Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olub. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa və quruculuq işlərində Türkiyə şirkətlərinin fəallığı xüsusi diqqət çəkir. Möhtərəm Prezidentimizin elə bir çıxışı yoxdur ki, Azərbaycan-Türkiyə münasibətlərindən, qardaş ölkənin istər İkinci Qarabağ müharibəsində, istərsə də postmünaqişə dövründə hərtərəfli dəstəyindən bəhs etməsin. Bu, dünyaya bir mesajdır."

Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə diqqəti bu günlərdə ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda dövlət başçısı İlham Əliyevin çıxışına və iştirakçıların suallarına cavabına yönəldərək bildirib ki, burada da Azərbaycan-Türkiyə münasibətləri əsas müzakirə edilən məsələlərdən oldu. "Mən Azərbaycan-Türkiyə münasibətləri haqqında danışmağa başlasam, biz onda gərək bir neçə gün burada olaq. Baxışlarımız tamamilə aydındır. Biz qardaş və dostuq. Biz müttəfiqik. Ötən il Şuşada biz artıq əldə olunan nəticələri rəsmiləşdirdik. Biz rəsmi olaraq Müttəfiqlik Bəyannaməsinə imza ataraq müttəfiqə çevrildik" söyləyən Prezident İlham Əliyev vurğuladı ki, bu, reallığın rəsmiləşdirilməsi idi. Çünki uzun illər ərzində Azərbaycan və Türkiyə müttəfiq kimi addımlar atırdılar. Azərbaycan əməkdaşlığın, tərəfdaşlığın və qardaşlığın bu səviyyəsini yüksək dəyərləndirir. Bu əminlik də ifadə edilir ki, əməkdaşlığımız bütün sahələrdə yalnız güclənəcək və bu, regional sabitliyin mühüm meyarıdır. Çünki Türkiyə ilə Azərbaycan arasında iş birliyi və onların birgə fəaliyyəti bölgədə sabitliyin möhkəmləndirilməsinə yönəlib.



Baş redaktor onu da əlavə edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev postmünaqişə dövrünün prioritetlərini açıqlayarkən ordumuzun daha da gücləndiriləcəyini, döyüş qabiliyyətinin artırılacağını bildirdi: "Məhz bu hədəfə söykənərək hər zaman keçirdikləri təlimləri ilə diqqətdə olan Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin postmünaqişə dövründə reallaşdırdıqları geniş hərbi təlimlərin davamlılığı diqqəti cəlb edir. Şuşa Bəyannaməsində Türkiyə və Azərbaycanın bir-birinə hərbi dəstək verəcəkləri ilə bağlı müddəa öz əksini tapıb. Sənəddə qeyd olunur ki, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq. Bu baxımdan Azərbaycan-Türkiyə hərbi təlimlərinin keçirilməsi dünyaya ünvanlanmış bir mesajdır. Açıq bildirilir ki, Azərbaycan öz müstəqilliyini, ərazi bütövlüyünü, şəhidlərimizin qanı bahasına azad edilən torpaqlarını daim qoruyacaq. Bunun üçün bütün zəruri addımlar atılacaq. Azərbaycan bütün qonşuları ilə sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyir. Eyni zamanda, Azərbaycan tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən ölkə kimi nüfuz qazanır. Ölkəmizdə bütün xalqların, millətlərin nümayəndələri dostluq, qardaşlıq mühitində yaşayırlar. Azərbaycanın çağırışlarının əsasında İslam dünyasının birliyi xüsusi yer tutur. Təəssüflər olsun ki, bəzi dövlətlər, xüsusilə də qonşu İran İslam dini adı altında riyakar və ikiüzlü siyasət həyata keçirir."

"Dövlət başçısı İlham Əliyev sözügedən konfransda bu məqamı xüsusi qeyd etmişdir ki, mən İranın əvvəlki üç prezidenti ilə - Prezident Hatəmi, Prezident Əhmədinejad və Prezident Ruhani ilə işləmişəm. Bütün bu illər ərzində heç vaxt indiki vəziyyətimizə oxşar bir şey olmayıb. Heç vaxt Azərbaycana qarşı nifrət və təhdid dolu sözlər işlədilməyib. Sərhədimizdə heç bir hərbi təlim keçirilməyib. Ancaq bir neçə ay ərzində iki hərbi təlim keçirilib. Deməli, bu, o deməkdir ki, bu vəziyyəti yaradan biz deyilik. Azərbaycan bütün qonşuları ilə sülh və dostluq münasibətləri istəyir. Eyni zamanda, həmişə müstəqilliyimizi, həyat tərzimizi müdafiə edəcək, heç bir xarici aktora öz standartlarını və iradəsini hökumətimizə, xalqımıza tətbiq etməyə imkan verilməyəcək",- deyə Vüqar Rəhimzadə bildirib.

Baş redaktor dekabrın 5-də başlayan və Azərbaycanın İranla sərhəd bölgələrini - Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini də əhatə edən Azərbaycan-Türkiyə hərbi təlimlərinin özündə ehtiva etdiyi çağırışlara diqqəti yönəldərək bildirib ki, iki dost ölkə bir il ərzində 10-dan çox birgə hərbi təlim keçirib: "Bu təlimlər həm Azərbaycanda, həm də Türkiyədə təşkil edilib. Qeyd etdiyimiz kimi, bu, regional sabitliyin və təhlükəsizliyimizin mühüm meyarıdır. Azərbaycana və ya Türkiyəyə qarşı məkrli planları olanlar bilməlidirlər ki, türk ordusu tək deyil, orada, həmçinin bizim ordu da var. Bizim ordu isə tək deyil, o cümlədən orada türk ordusu da var. Müzəffər Ali Baş Komandanın "Sərhədimizdə təxribatları planlaşdıranlar, bizi qorxutmağa çalışanlar bu planlarını yaddan çıxarmalıdırlar" çağırışı İran kimi məkrli siyasəti ilə özünə inamı, etimadı sıfra endirən dövlətlərə ciddi mesajdır."

Baş redaktor vurğulayıb ki, göründüyü kimi, Azərbaycanla Ermənistan arasında uzun müddətdir davam edən qarşıdurmanın sona çatması ədalətin və beynəlxalq hüququn yanında olan dövlətləri sevindirir, illərdir təcavüzkara hər bir baxımdan dəstək göstərən İran kimi dövlətləri isə məyus edir.

# Cenevrədə ermənipərəst siyasətçilər ifşa edilib


LA FACULTÉ DES LETTRES ET LE GLOBAL STUDIES INSTITUTE
DE L'UNIVERSITÉ DE GENÈVE VOUS INVITENT À UN DÉBAT SUR:
GUERRE ENTRE L'ARMÉNIE ET L'AZERBAÏDJAN ET LE RETOUR DU GRAND JEU GÉOPOLITIQUE EN EURASIE
Avec des présentations par
Micheline Calmy-Rey, Ozcan Yilmaz et Vicken Cheterian
Modéré par la Prof. Valentina Calzolari
Le 12 décembre 2022, 18h30 | Uni Mail, salle MR070


Cenevrədə "Ermənistan və Azərbaycan arasında müharibə və Avrasiyada böyük geosiyasi oyunların qayıtması" mövzusunda keçirilən dəyirmi masaya qatılan Azərbaycan icmasının üzvləri ermənilərin və ermənipərəst siyasətçilərin yalanlarını ifşa ediblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, erməni diasporunun təşəbbüsü ilə Cenevrə Universitetinin Qlobal Tədqiqatlar İnstitutunda təşkil edilən dəyirmi masada İsveçrə Konfederasiyasının sabiq prezidenti Mişelin Kalmi-Rey, Cenevrə Universitetinin müəllimləri Özcan Yılmaz və Vikken Çeteryan çıxış ediblər.

Valentina Kalzolarinin moderatorluğu ilə aparılan tədbirdə Fransada yaşayan Azərbaycan əsilli hüquqşünas Zaur Sadıqbəyli, İsveçrədəki Azərbaycan icmasının üzvləri, Cenevrə Universitetinin tələbələri Aynur Əsədli və Əminə Əhədova iştirak ediblər.

Mişelin Kalmi-Reyin və Valentina Kazlorinin Qarabağ həqiqətləri, Zəngəzur dəhlizi ilə bağlı yalan məlumat verdiklərini görən Zaur Sadıqbəyli keçmiş prezidentə və moderatora kəskin etirazını bildirib və dezinformasiya yaymağın yolverilməzliyi barədə onlara xəbərdarlıq edib.

Ermənilərin, moderatorun və Mişelin Kalmi-Reyin mane olmaq cəhdlərinə baxmayaraq Zaur Sadıqbəyli xalqımızın haqlı mövqeyini və tarixi faktları tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır və hər zaman Azərbaycanın tərkibində olub, Zəngəzur dəhlizinin açılması ilə bağlı maddə isə 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda əks olunub. Bölgədə sülhün və normallaşma münasibətlərinin bərqərar olması naminə Azərbaycan dövlətinin ciddi səylər göstərdiyini, bütün kommunikasiya və nəqliyyat marşrutlarının açılmasında maraqlı olduğunu, hətta Ermənistanın rifahının artırılması naminə bu ölkənin iqtisadi layihələrə cəlb olunması təklifini irəli sürdüyünü vurğulayıb.

Xatırladaq ki, isveçrəli siyasətçi Mişelin Kalmi-Rey ermənipərəst mövqeyi ilə tanınır, 2012-ci ildə Ermənistanın "Şərəf" ordeni ilə təltif olunub. Məhz onun dəvəti ilə 2013-cü ildə Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan Cenevrə Universitetində mühazirə ilə çıxış edib. Dəyirmi masada baş verənlərin videosunu aşağıdakı link vasitəsilə izləmək mümkündür: https://www.youtube.com/watch?v=abFZ25mOu1k

# Ermənilər ikitərəfli oyun oynamaq istəyir?

Deməli, Türkiyə nəşri bu ilin sonunda Ermənistan və Türkiyə arasında yük hava nəqliyyatının başlayacağını yazır və ermənilərin "Sputnik Ermənistan"ı da bunu təsdiq edir.




Və erməni nəşri Türkiyə mallarının birbaşa Ermənistana çatdırılacağını bildirir. SİA-nın erməni saytlarından əldə etdiyi məlumata görə, bu, erməniləri elə də qane etmir. Niyə, çünki ermənilər bu daşınmanın Türkiyə tərəfi üçün fayda vəd edəcəyi halda, erməni tərəfi üçün təhdidlərlə dolu olacağını deyirlər.

Məsələn, indi də ermənilər deyirlər ki, "Ermənistan bazarını dolduran ucuz türk məhsulları erməni istehsalçıları üçün böyük rəqabət problemi yaradır. Bundan əlavə, burada nəzərə almaq lazımdır ki, Ermənistan-Türkiyə ticarət kommunikasiyası ənənəvi olaraq bir istiqamətdə işləyir - Ermənistan Türkiyə məhsullarını idxal edir, Türkiyədə isə erməni məhsulları praktiki olaraq yoxdur. Deməli, Ermənistan-Türkiyə hava nəqliyyatı ilə yükdaşımaların başlamasına az qalmış Ermənistan iqtisadiyyatının sevinəcək heç nəyi yoxdur".

Maraqlıdır ki, bir müddət əvvələ baş vurub iki ölkə arasındakı ticarət dövriyyəsini araşdıran ermənilərə görə, 2020-ci ilin sentyabr ayına qədər Ermənistan-Türkiyə ticarətinin həcmi təxminən 163 milyon dollar olduğunu deyirlər.

Qeyd edək ki, bu vaxt Ermənistandan ixrac 490 minə yaxın, Türkiyə mallarının idxalı isə 162,3 milyona çatıb. Yəni Ermənistan Türkiyəyə ixrac etdiyi məhsuldan 330 dəfə çox Türkiyə məhsulu idxal edib. Deyim ki, bir qədər gülünc də olsa, amma ermənilər bunu birtərəfli oyun kimi xarakterizə edirlər. Yəni burada əsas oyuncu guya türklərdir.

Təbii ki, ermənilər bəlkə də haqlıdırlar. Amma ixraca çıxardıqları mövsümi pomidor -xiyarla türkləri elə də təəccübləndirə bilməyəcəklərini düşünmürlər.

***Ağasəf Babayev***




# Utilizasiya proqramı necə həyata keçirilir?

**Hal-hazırda avtomobillərin utilizasiyası və təkrar emalı prosesinə iqtisadi təsir sistemlərinin təhlilinə həsr olunmuş bir çox tədqiqatlar mövcuddur. Avtomobillərin təkrar emalı və utilizasiyası proseslərinin iqtisadi stimullaşdırılmasında dövlətin rolu əsasən qiymətləndirilir.**

İstismar müddətini başa vurmuş avtomobilin utilizasiyası təkcə ətraf mühitin çirklənməsinin azalması deyil, həm də təbii ehtiyatların və enerji istehlakının azalmasıdır. Qeyd edək ki, avtomobillərin utilizasiyası və təkrar emalı prosesinin iqtisadi stimullaşdırılması sahəsində müxtəlif ölkələrin təcrübəsi əvəzsizdir.

Avropa Birliyi 1997-ci ildə Avropa Komissiyası nəqliyyat vasitələrinin təkrar emalı ilə bağlı aydın məqsədlər və qaydaları müəyyən edən təklifi qəbul etmişdir. 2000-ci ilin sentyabrında qərarı Avropa Parlamenti və Şura tərəfindən rəsmi olaraq qəbul edilmişdir. Bu qərar nəhayət, 2007-ci ilin iyul ayında qüvvəyə minmişdir. 25 Aİ ölkəsi öz milli qanunlarına müvafiq düzəlişlər edib.

İstifadə müddəti bitmiş nəqliyyat vasitələri haqqında qərara əsasən Aİ ölkələri öz ölkələrində istismar müddətini başa vurmuş nəqliyyat vasitələrinin və işlənmiş ehtiyat hissələrinin toplanması üçün lazımi sistem və müvafiq strukturlar yaradır.

2003-cü il iyulun 1-dən Aİ ölkələri istehsalında müəyyən kimyəvi maddələrdən istifadə olunan avtomobillərin satışına icazə vermir və istehsalçıları təkrar emal olunan materiallardan avtomobil hazırlamağa təşviq edir.

Ümumiyyətlə, Aİ ölkələrində işlənmiş avtomobillərin təkrar emalı proseduru standartdır və yuxarıda göstərilən prosedura uyğun olaraq həyata keçirilir. İstismar müddətini başa vurmuş nəqliyyat vasitələrinin yığılması üzrə məsul işçilərin bir çox ölkələr üzrə şəbəkələr yaradılmışdır. Son sahibi işlənmiş avtomobili bu məntəqələrin hər hansı birinə pulsuz çatdırılır.

ABŞ hər il köhnə avtomobillərin 95%-ni təkrar emal edir. Əlbəttə ki, bu nəticəyə nail olmaq üçün mümkün olan ən sürətli emal təmin etmək lazımdır. ABŞ-da təkrar emal texnologiyası Avropadakından bir qədər fərqlidir. Burada maşının sökülməsinə əhəmiyyət vermirlər. Bir çox poliqonlarda onlar sadəcə nəhəng metal parçalarına sıxılırlar. yenidən əridildikdə, qalan rezinlərin bir hissəsi parça kimi sadəcə yandırılır. Amerika sisteminin əsas xüsusiyyətlərinə aşağıdakılar daxildir: köhnə və ya xarab avtomobillərin hərraclarda satışı; sökülmə və təkrar emalın unifikasiyası; ehtiyat hissələrinin satışından əsas gəlirin əldə edilməsi; işlənmiş ehtiyat hissələri üçün böyük ixrac bazarının olması; avtomobil karkalarının parçalayıcılara satışı tullantıların saxlanması və utilizasiyasının yüksək qiyməti və s.



## Bəs, bu proqram necə həyata keçiriləcək?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Azərbaycanda 2018-ci ilin dekabr ayında təsdiq edilmiş "Yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı"nda köhnə avtomobillərin utilizasiyasına dair ayrıca proqramın hazırlanması nəzərdə tutulub. "Mexaniki nəqliyyat vasitələrinin utilizasiyası" adlı proqramın layihəsi artıq hazırdır və dövlət qurumları ilə razılaşdırma mərhələsindədir.

Təkrar emal proqramını həyata keçirmək, bizim kimi ölkələr üçün asan deyil. Çünki biz böyük avtomobil istehsalçıları deyilik. Çin, Rusiya, Avropa ölkələri, Yaponiya, ABŞ inkişaf etmiş avtomobil sənayesinə malikdir və onların təkrar emal proqramı ilə bağlı heç bir problemi yoxdur. Bizim avtomobil istehsal səviyyəmiz çox aşağıdır. Ona görə də stimullaşdırıcı addımlar atmağa məcburuq ki, vətəndaş yeni avtomobil ala bilsin.

Nəqliyyat eksperti Eldəniz Cəfərov:" Utilizasiya programı əsasən müasir təhlükəsizlik və ekoloji standartlara cavab verməyən avtomobillərə aiddir. Amma qeyd eləmək lazımdır ki, utilizasiya programına könüllülük əsasında həyata keçirilir. Yəni vətəndaş öz istəyi ilə bu prosesdə iştirak edə biləcəklər.



Utilizasiya programında əsas məqsəd bizim ölkəmizdə ekosistemin yaxşılaşdırılması , vətəndaşların sosial və iqtisadi rifahını yüksəldilməsidir. Ölkəmizdə istifadə olunan avtomobillərin böyük əksəriyyəti istifadəyə yararsız, avtomabillərdir. Bunlar həm təhlükəsizlik baxımından həm də ekoloji cəhətdən zərərli avtomobillər sayılır".

***Havar Şəfiyeva***



# “Azərbaycanın humanistliyindən sui-istifadə etmək yetər!”






“44 günlük Vətən müharibəsinin sonunda Ermənistanın məğlubiyyətini etiraf etməsi və kapitulyasiya aktına imza atmasından sonra, təbii olaraq qalib Azərbaycan diktə edən tərəfə çevrildi”. ”Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, sənədə Rusiya tərəfinin də qoşulması və Rusiya prezidentinin də imza atması, məlum kapitulyasiya aktında tərəflərin üzərinə götürdükləri öhdəliklərə əməl etməsinə qarant rolu oynamaq məqsədi daşıyırdı. Təəssüf ki, Azərbaycan tərəfi üzərinə götürdüyü bütün öhdəlikləri vaxtında, hətta vaxtından əvvəl yerinə yetirməsinə baxmayaraq, Ermənistan tərəfi öhdəliklərindən yayınır. Qarabağdakı qanunsuz silahsız birləşmələr hələ də fəaliyyət göstərir. Zəngəzur dəhlizinin açılması ilə əlaqədar hələ də real addım atılmır. Bütün bunlar yetməzmiş kimi erməni əsilli Rusiya vətəndaşı gəlib Qarabağda separatçılara rəhbərlik edir, onları Azərbaycan əleyhinə mübarizəyə qaldırır, məhz onun rəhbərliyi altında bu ərazidə qanunsuz mədənçilik fəaliyyəti, ekologiyaya zərər vuran digər fəaliyyətlər göstərilir. Nəhayət, iş o yerə çatıb ki, Azərbaycanın humanistliyindən sui-istifadə edib Qarabağa İrandan silah-sursat, terrorçu qruplar keçirilir. Nəhayət, Azərbaycan xalqının səbri tükənməli idi və tükəndi. Axı bu necə olur ki, xaricdən gələn hər kəsi dinməz-söyləməz əraziyə buraxan, sülhməramlı adlandırılan, əslində hərbməramlı qüvvələr Azərbaycanın rəsmi qurumlarının nümayəndələrini, media təmsilçilərini buraxmırlar? Buna səbir göstərmək artıq mümkün deyildi. Hesab edirəm ki, Azərbaycanın QHT və media təmsilçilərinin, aktiv gənclərin atdıqları bu addım tamamilə təbii qarşılanmalı, həm ermənilər, həm də onların havadarları qışqır-bağır salmaq əvəzinə əməllərinə çəki-düzən vermək barədə düşünməlidirlər. Əks-təqdirdə Azərbaycan xalqı onları özü düzənə məcbur etməli olacaq.

*Gülyana*



**Vəli Vəliyev**

# Volkovdan qurd olmaz

Azərbaycan ekoloji terrora yox deyir, qanuni ərazilərimizdə - Qarabağ iqtisadi rayonunda xarici şirkətlərin yeraltı sərvətlərimizi qanunsuz istismar etmələrini durdurmağa çalışır. Ermənistanın 30 illik talançılığına son qoymaq üçün ölkənin rəsmi və qeyri-hökumət təşkilatları, cəmiyyət institutlarının nümayəndələri artıq konkret addımlar atmağa başlayıblar. Dekabrın 3-dən başlayaraq torpaqlarımızda, suveren ərazilərimizdə yeraltı mədənlərimizin istismaq edilməsinə etiraz hələlik ekoloqlardan gəlib. Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarına baş verənlər barədə xəbərdarlıqlar edilib. Nəticə əldə edilməyəcəyi təqdirdə digər qurumların da işə qarışmayacağına heç kim zəmanət verə bilməz. Amma yenə də cavabdeh şəxslər, konkret olaraq sülhməramlılar hələ də ikibaşlı oyunlar oynamaqla Azərbaycan tərəfinin əsəblərini yoxlayırlar. Nədənsə, Rusiya və Türkiyənin birgə çalışdığı Monitorinq Mərkəzinə yox, Rusiya Müdafiə Nazirliyinə birbaşa tabe olan sülhməramlılar Azərbaycanın haqlı tələblərinə hələ də etinasız yanaşır, üstəlik erməni separatçıları ilə bir olduqlarını gizlətmirlər.

Bu sətirlər qələmə alınarkən Azərbaycanın QHT nümayəndələrinin keçirdiyi etiraz aksiyası 19 saatdır ki, davam edir. Ortada isə bir tələb var, Rusiya sülhməramlılarının komandanı Volkov hadisə yerinə gəlsin. Volkov isə ötən aksiyalardan fərqli olaraq bu dəfəkinə gəlməyi nədənsə özünə sığışdırmayıb. Əvəzində aksiya keçirilən ərazidə sülhməramlı kontingentin sayını artırıb, ağır silahlar gətirib ora.

Yataqxana konteynerlər olan avtomobillərin hadisə yerinə gətirilməsi isə Azərbaycan tərəfinin haqlı tələblərinin hələ uzun müddət yerinə yetirilməməsinə bir işarədir. Özü isə, məlumata görə Moskvaya qaçıb.Niyə və kimdən qaçıb?

Etiraz aksiyaları Laçın dəhlizinin bağlanmasına səbəb olub. Sülhməramlılar da, komandanları Volkov da inad edir. Ya hadisənin daha dramatik hal almasını istəyir, ya da deyəcəyi söz yoxdur, tapşırıq hələ də yuxarıdan gəlməyib. Belə görünür ki, Volkov hadisələrin inkişafına hazır deyil, ya da belə bir vəziyyətin yaranacağını, Azərbaycanın belə bir addım atmağa cəsarət edəcəyini ağlının ucundan da keçirmirmiş. Bu ərazilərin, yəni Qarabağın, Laçın dəhlizinin kimə məxsus olduğundan da general bixəbərdir. Anlaşılan budur ki, Volkov sülhməramlı kimi bu ərazilərdə uzun müddət qalacağını düşünür və buna hazırlaşır. Bu yaxınlarda ermənilərin sülhməramlıların ailələrinin də Qarabağa yerləşdiriləcəyi barədə verdikləri məlumatlar sıradan bir sərsəmləmə kimi qəbul edilməməlidir, əksinə buna ciddi reaksiya verilməlidir. Bunun qanunsuz, hətta cinayət xarakterli olması barədə xatırlatmaların ünvanlanması işin xeyrinə olardı.

Ermənistandakı ermənilər də ”arçaxlılar” kimi sərsəmləməyə başlayıblar. ”Hay”ların qəzetləri yazır ki, ”Azərbaycan tərəfi ekoloji aksiya adı altında yenidən Xankəndi-Gorus yolunu bağlayıb, on minlərlə Qarabağ ermənisini mühasirəyə alıb”. Yazırlar ki, Volkovla Azərbaycan nümayəndə heyətinin əvvəlki görüşündə ”Qarabağ nümayəndələri” də danışıqlara qatılmışdı. Dünən isə sülhməramlılar Qarabağ tərəfinin iştirakını kəskin şəkildə rədd ediblər.

Bu barədə mövzunu inkişaf etdirən ”Hraparak” qəzeti yazır ki, sülhməramlılar dünəndən başlayan aksiyaların keçirildiyi yerə hətta erməni deputatları da buraxmayıblar. Rusiya sülhməramlıları bildiriblər ki, danışıqlardan söhbət gedə bilməz və bu, həm də azərbaycanlıların tələbidir. Onlar bildirdilər ki, problemin həlli üçün siyasi iradə lazımdır və azərbaycanlıları dəhlizdən zorla qovmaq fikrində deyillər. Bu qərarı ”yuxarıdan” alanda nə edəcəklərini biləcəklər. ”Qarabağ parlamenti” isə üçtərəfli bəyanat çərçivəsində Rusiya sülhməramlılarını aksiyanı ən sərt üsullarla dayandırmağa çağırıb.

Özünü Qarabağ separatçılarının ”Dövlət naziri”, ”Artsaxın Mülki Müdafiə rəisi” kimi təqdim edən erməni əsilli rusiyalı milyarder Ruben Vardanyan isə Qarabağa gələn yolun kəsilməsi səbəbində ermənilərin yaşadığı bütün ərazilərdə fövqəladə vəziyyət elan edib, operativ qərargahlar yaradıb, bir sözlə ən pis vəziyyətə hazırlaşmağa başlayıb. O, mülki müdafiəyə cavabdeh olan idarələrin rəhbərləri müşavirə keçirib. Vəziyyətin kifayət qədər mürəkkəb olduğunu və Qarabağın faktiki olaraq Azərbaycanın blokadasında olduğunu qeyd edən ”dövlət naziri”, eyni zamanda, böhrana hazır olduqlarını vurğulayıb. Bu, yanaşma əslində ondan xəbər verir ki, Azərbaycanın rəsmi orqanlarının verdiyi məlumatlar dəqiqdir. Yəni Qarabağda yaşayan erməni separatçıları sülhməramlıların çətiri altında özlərini daha sərbəst və toxunulmaz hesab edərək növbəti müharibəyə hazırlaşırlar. Müharibənin ölçüsü də önəmli deyil, genişmiqyaslı da, lokal da ola bilər. Amma separatçıların döyüşə hazırlaşdıqları şübhəsizdir.

Rusiyanın Müdafiə Nazirliyinin 1950 nəfərdən ibarət hərbi kontingenti sülhməramlı missiya adına iddialı olsalar da, sülh məramlı deyil. Bu hərbçilər sülh yaratmanın əlifbasını belə bilmirlər, 20 yanvar hadisələri zamanı küçə və meydanlara səpələnmiş başkəsən ordudan heç bir fərqləri yoxdur. Jurnalistin qələmi ilə çıxdığı sivil mübarizə meydanına PK pulemyotu ilə çıxan ”sülhməramlı”dan nə gözləmək olar? Bunların komandanı Volkov isə əməlləri ilə dağ siçanını xatırladır, soyadına isə heç bənzəmir. Bir sözlə, Volkovdan qurd olmaz...

# Qərb ölkələri Ukrayna ilə həmrəy olduğunu bildirib

ABŞ, Kanada, Almaniya, İngiltərə, Fransa, İtaliya və Yaponiyadan ibarət G7 ölkələri yaydıqları birgə bəyanatla Ukraynaya dəstək vədlərini təsdiqləyiblər. SİA xarici mətbuata istinadən xəbər verir ki, Almaniyanın dönəmli sədri olduğu G7 ölkələrinin liderlərinin onlayn görüşündə qəbul edilən birgə bəyanatda ”Biz Ukraynaya sarsılmaz dəstəyimizi bir daha təsdiqləyirik və Rusiyanın davam edən müharibəsi qarşısında Ukrayna ilə həmrəy olduğumuzu bildiririk” deyilir.



Bəyanatda Rusiyanın Ukraynadakı kritik infrastrukturlara ”qeyri-insani və qəddar” hücumları pislənərək, onun mülki şəxslərə qarşı hərəkətlərinin müharibə cinayəti təşkil etdiyi xatırladılıb. G7 ölkələri Rusiyadan müharibəni dərhal dayandırmağı və Ukrayna ərazisindən tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb ediblər.

Bəyannamədə Qara Dəniz Taxıl Dəhlizi Sazişinin uzadılmasından da məmnunluq ifadə olunub. Vurğulanıb ki, G7 ölkələrinin də əsas məqsədi sənayenin iqlimə uyğun yenidən qurulması olan İqlim Klubu yaradılıb. Bəyanatda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatından Beynəlxalq Enerji Agentliyi ilə birlikdə İqlim Klubunun müvəqqəti katibliyinə ev sahibliyi etməsi xahiş olunur.

*Ləman Əlizadə*



# Hindistanın baş naziri niyə Putinlə görüşmək istəmir?

Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko Hindistanın baş naziri Narendra Modinin Rusiyaya səfər etməkdən imtina etməsi ilə bağlı mesajı anlaşılmazlıq adlandırıb. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, o, bunu ”Valday” Beynəlxalq Diskussiya Klubunun Asiya Konfransı çərçivəsində bildirib.

”Düşünürəm ki, burada bir anlaşılmazlıq var. Rusiya prezidentinin sözçüsü Dmitri Peskovun dediyi kimi, baş nazirin səfəri bu il planlaşdırılmayıb”.

Qeyd edək ki, bundan əvvəl Hindistan hakimiyyəti Hindistan liderinin Rusiya prezidenti Vladimir Putinlə görüşdən imtina etməsinə münasibət bildirib. Qeyd olunur ki, Modi müvafiq qərarı Putinin Ukraynada nüvə silahından istifadə etməklə hədələməsindən sonra qəbul edib. Yeri gəlmişkən, bundan əvvəl Kreml Rusiya və Hindistan başçılarının 2022-ci ilin sonuna qədər görüşməyi planlaşdırmadığını da bildirib.

*Ağasəf Babayev*

# 2022-ci il:

## Böyük Qayıdışın başlanğıc ili!

***Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq və abadlıq işləri aparır. Hazırda Qarabağ və Şərqi Zərgəzurda Böyük Qayıdışla bağlı xeyli sayda infrastruktur layihələri həyata keçirilir. Bu məqsədlə həm 2021-ci, həm də 2022-ci ildə dövlət büdcəsindən Qarabağda və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri üçün 2,2 milyard manat vəsait ayrılıb. Bu ilin ortasında dünya bazarında neftin qiymətinin qalxması ilə Azərbaycanın 2022-ci il dövlət büdcəsinə yenidən baxılaraq sənədə edilən dəyişiklik çərçivəsində Qarabağın yenidən qurulması istiqamətinə yönləndirilən vəsaitin həcmi daha 470 milyon manat artırıldı. Bununla da son iki ildə Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən işlərlə bağlı dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrılıb.***




Bunun nəticəsidir ki, ötən iki il müddətində işğaldan azad edilən ərazilərimizdə xeyli sayda meqalayihələr gerçəkləşdirilib. İlk növbədə infrastrukturun qurulması istiqamətində böyük işlər görülüb, yollar çəkilib, nəhəng tunellər salınıb. Ötən il Füzulidə cəmi 8 aya tikilib istifadəyə verilən Beynəlxalq Hava Limanı, eləcə də bu ilin oktyabrında açılışı həyata keçirilən Zəngilan Beynəlxalq Hava Limanı Qarabağ və Şərqi Zəngəzurda qısa zamanda gerçəkləşdirilən vacib layihələr kimi dəyərləndirilməlidir. Bölgənin iqtisadi və logistik imkanlarına müstəsna xidmət göstərəcək daha bir beynəlxalq hava limanının açılışı 2025-ci ildə planlaşdırılan Laçın hava limanının tikintisi də sürətlə aparılır. Ümumiyyətlə, təsdiq olunmuş investisiya planına əsasən, Qarabağ və Şərqi Zəngəzurda ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel tikiləcək, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa olunub. Bu ərazilərdə bir neçə su-elektrik stansiyasının açılışı həyata keçirilib. Artıq bütün şəhərlərin Baş planları hazırlanıb və təsdiqlənib.








Təbii ki, zəfərdən sonra Böyük Qayıdışın ilk uğurlu addımları da atıldı və Zəngilanın "ağıllı kənd" konsepsiyası əsasında qurulmuş Ağalı kəndi sakinlərin ixtiyarına verildi. Belə ki, bu il mayın 27-də "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi keçirildi. Həmin gün dövlət başçısı İlham Əliyev Ağalı kənd sakinləri ilə görüşü zamanı bütün Azərbaycan xalqına müjdə verərək söyləmişdi: "Bu gün Böyük Qayıdış dediyimiz prosesə start verildi. Böyük Qayıdışın birinci kiçik addımı, bax bu gün atılır". Şanlı Zəfərimizin ardınca xalqımıza verilən bu xoş xəbərdən sonra, yurd həsrətli soydaşlarımız od-ocaqlarına dönəcəyi zamana sayılı günlər qalmasının təsvirəgəlməz sevincini yaşadılar. Çox keçmədən Zəngilanın Ağalı kəndinin sakinləri illərlə arzuladıqları bu xoşbəxtliyi yaşadılar, doğma kəndlərinə qovuşdular. İyulun 19-dan etibarən Zəngilanın Ağalı kəndinə əhalinin dörd mərhələdə köçürülməsinə start verildi. Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən dördüncü köç karvanı isə ayın 25-də Ağalıya yola salındı. Daha 10 ailə - 58 nəfər yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşdılar. Beləliklə, Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi uğurla başa çatdırıldı. Məcburi köçkünlərin 13 ailədən (62 nəfər) ibarət növbəti qrupu sentyabr ayında yola salındı. Böyük Qayıdışa uyğun olaraq ikinci mərhələdə 25 ailənin 125 nəfər üzvü Ağalı kəndinə yola düşdü. Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Bu yaxınlarda Ağdamda dövlət başçısının iştirakı ilə 3 kəndin - Xıdırlı, Kəngərli və Sarıcalının təməlləri qoyulub və yaxın iki il ərzində bu kəndlərin sakinləri də geri dönəcəklər. Növbəti ilin sonuna kimi Laçın şəhərinin bərpası nəzərdə tutulub. Şuşada da ilk yaşayış kompleksinin inşasına start verilib və gələn ilin sonunda şəhər ilk sakinlərini qəbul edəcək.

Burada bir məsələ xüsusi vurğulanmalıdır ki, Azərbaycan ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzurda aparılan işləri heç bir təşkilatdan, donordan yardım almadan öz maliyyə gücü sayəsində reallaşdırıb. Təbii ki, Azərbaycan hökuməti üçün gələn il də Qarabağ və Şərqi Zərgəzurun bərpa və yenidən qurulması prioritet olacaq. Belə ki, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılması nəzərdə tutulur. Bu da 2022-ci illə müqayisədə 330 milyon və ya 12,4 faiz çoxdur.

Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. "İlkin hesablamalara görə, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının icrası məqsədilə büdcədən 32 milyard manatdan çox vəsait tələb olunur. Bunun 58 faizi azad edilmiş ərazilərə yönəldiləcək". Bunu Milli Məclisin iclasında Baş nazir Əli Əsədov deyib. Baş nazir bildirib ki, son 2 ildə Böyük Qayıdış layihəsinə 5,8 milyard manatdan çox vəsait yönəldilib.

Qeyd edildiyi kimi, Proqramda nəzərdə tutulan tədbirlər hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcək. Qeyd edilən müddətə kimi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur, iqtisadiyyat yenidən qurulacaq, sosial inkişaf, ətraf mühitin tarazlı inkişafı təmin ediləcək. Ərazilər minalardan və partlamamış hərbi sursatdan təmizlənəcək, bu yerlərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi reallaşacaq. Həmçinin yaşayış üçün rahat şərait yaradılması məqsədilə nəqliyyat-yol, rabitə, su, qaz, elektrik, istilik təmin olunacaq, o cümlədən həssas əhali qruplarının sosial müdafiəsi gücləndiriləcək. "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyaları öz həllini tapmaqla, ölkədə mənzil fondunun həcmi artırılacaq. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur 2026-cı ilə kimi təkcə Azərbaycan yox, bütün dünya miqyasında yaşayış üçün ən cəlbedici məkanlardan birinə çevriləcək.

**S. Azadi**

# Hulusi Akardan Yunanıstana mesaj: "Səhv hərəkətlərdən üz döndərin"

**Yunanıstan əsassız, məntiqli və qeyri-qanuni tələb və iddialar, təxribat xarakterli hərəkətlər və aqressiv ritorika ilə gərginliyi artırmağa davam edir. SİA-nın türk saytlarından əldə etdiyi məlumata görə, bunu milli müdafiə naziri Hulusi Akar özünün sədrliyi ilə Türkiyə Silahlı Qüvvələrinin (TSQ) komandanlığı və birlik komandanlarının iştirakı ilə keçirilən videokonfransda deyib.**



H.Akar Türkiyə Silahlı Qüvvələrinin terroru mənbəyində aradan qaldırmaq strategiyası ilə sərhədlərin təhlükəsizliyini təmin etdiyini, ölkə daxilində və hüdudlarından kənarda bütün terror təşkilatlarına qarşı mübarizə apardığını bildirib: "Dənizlərimizdə və səmamızda hüquq və mənafelərimizi əzm və qətiyyətlə qoruyur, regional və dünya sülhünə töhfə vermək üçün böyük səylər göstəririk."

H.Akar Egey və Şərqi Aralıq dənizində baş verən son hadisələrə toxunaraq deyib:

"Yunanıstan əsassız, məntiqli və qanunsuz tələb və iddialarla, davamlı təxribatçı hərəkətlər və aqressiv ritorika ilə gərginliyi artırmaq üçün hər cür cəhd edir. Yunanıstanın hər cür ədalətsiz və qanuna zidd hərəkətlərinə cavab çərçivəsində diplomatik və sahədə lazımi cavab verilir.

Bizim gözləntimiz ondan ibarətdir ki, bəzi yunan siyasətçiləri və hərbi xadimləri daxili siyasi məqsədlər üçün öz barışmaz və təxribatçı mövqelərindən dərhal əl çəksinlər, problemlərin dialoq yolu ilə həllinə diqqət yetirsinlər və tarixdən dərs götürsünlər. Gələcəyinin yaxşı olmasını arzu edənlər dünənin və bu günün səhv hərəkətlərindən üz döndərsinlər".




## "Aksiyalar məqsədimizə nail olana qədər davam etdirilməlidir"

**"Son iki gündə Şuşa-Xankəndi yolunda azərbaycanlı fəalların ekoloji tələblərlə keçirdikləri aksiyalar Azərbaycan cəmiyyətinin rus hərbçilərin müvəqqəti nəzarətindəki ərazilərimizdəki mövcud duruma necə həssas yanaşdığını bir daha göstərdi". Bunu "Səs" qəzetinə açıqlamasında "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.**





Onun sözlərinə görə, dövlət səviyyəsində rus sülhməramlılarının komandanlığı ilə qanunsuz mənimsəmə həyata keçirilən mədən yataqlarında monitorinqin aparılması üçün əldə edilmiş razılaşmanın pozulması Azərbaycan vətəndaşları arasında hiddətlə qarşılanır: "Bu məsələdə üzərlərinə düşən öhdəlikləri yerinə yetirməyən sülhməramlılara məramımızı çatdırmaq üçün ölkəmizin ekofəallarının təşkil etdiyi aksiya indi bütün dünyanın diqqətindədir. Silahsız, yalnız vətəndaş cəmiyyəti fəallarının iştirak etdiyi aksiyanın qarşısına ağır texnikalar çıxarılması, sülhməramlıların rəhbərliyi ilə görüş tələbinin yerinə yetirilməməsi, Laçın yolunun qismən bağlı qalmasına qəsdən şərait yaradılması, əslində, general Volkov və Ruben Vardanyan ikilisinin Ağdərə, Tərtər rayonu ərazisindəki Azərbaycanın yeraltı sərvətlərinin heç bir norma gözlənilmədən qanunsuz mənimsənilməsi, qanunsuz gəlir əldə edilməsi ilə bağlı iddiaları bir daha təsdiqləyir. Etiraz aksiyası həm də Azərbaycan dövləti və cəmiyyətinin eyni məqsəd və məramdan çıxış etdiyini bir daha həm separatçı rejimin qalıqlarına, həm də onlara qolqanad verən rus hərbçilərinin rəhbərliyinə göstərmiş oldu. Separatçıların, Ermənistandakı siyasətçilərin iddia etdiyi kimi, azərbaycanlılar heç də Laçın yolunu bağlamayıblar. Oradan mülki maşınlar və vətəndaşların hərəkəti həyata keçirilir. Yolu bağlayan elə rus hərbçilərin özləridir. Bu aksiyalar məqsədimizə nail olana qədər davam etdirilməli, qarşı tərəf əldə olunmuş razılaşmaları yerinə yetirənədək səsimizi ucaltmalıyıq. Çünki Qarabağ iqtisadi rayonu Azərbaycanın suveren əraziləridir. Burada nəzarətdən kənar mədən fəaliyyətinin yaratdığı fəsadlar digər azad edilmiş ərazilərdəki su mənbələrimizin, meşə fondumuzun ciddi zərər görməsinə səbəb olur. Bu səbəbdən, qanunsuz fəaliyyətlərin qarşısı dərhal alınmalı, həmin mədənlərə nəzarət bərpa olunmalıdır.

***Gülyana***



Elçin Bayramlı

# Regional idarəetməyə keçək, keçməyək?

**Ölkə başçısının müvafiq sərəncamından sonra ölkəmizdə 14 iqtisadi rayonun yaradılması və bu günlərdə bəzi dövlət orqanlarının regional idarələrinin yaradılması regional idarəetmə ilə bağlı fikirləri yenidən aktuallaşdırıb. Məlum olduğu kimi, bəzi nazirliklər artıq çoxdandır ki, öz əsasnamələrində dəyişiklik edərək regional idarəetməyə keçiblər. Bununla da nazirliklərin regional idarələrinə rayon icra başçılarının müdaxiləsinə son qoyulub. 4-5 rayonda bir idarə fəaliyyət göstərir və həmin rayonların əhalisinə xidmət göstərir. Və idarə hansı rayonda yerləşməsindən asılı olmayaraq rayon icra hakimiyyətinə deyil, birbaşa mərkəzi icra hakimiyyətinə tabe edilir. Bu həm də mərkəzləşdirilmiş idarəetməyə keçid üçün yaxşıdır.**

Bu addım dövlət strukturlarının təkmilləşdirilməsi, dövlət aparatının saxlanma xərclərinin, məmur sayının azalmasına yardım etməklə yanaşı, bir sıra digər məsələləri də ortaya çıxarır. Belə ki, 5 rayonda bir idarənin olması vətəndaşlar üçün əlavə vaxt və xərc itkisinə başa gələ bilər. Çünki bir rayondan bir sakin hansısa nazirliyin regional idarəsinə sənəd almaq və ya vermək məqsədilə getmək üçün 1 və ya 2 rayon keçməlidir. Təxminən 50-100 km məsafə qət etməlidir. Bu isə vətəndaşların əlavə vaxt və xərc sərf etməsinə gətirib çıxara bilər.

Bəzən rayon icra hakimiyyətlərinin də ləğv olunması və regional icra orqanının yaradılması təklifləri səslənir ki, bunun da mənfi və müsbət tərəfləri var. Yuxarıda qeyd olunanlar buna da aiddir.

Regional idarəetmə bir çox ölkələrdə tətbiq olunur. Belə ölkələrdə dövlət orqanlarının hər bölgə üzrə bir idarəsi olur, bölgədəki şəhər, qəsəbə və kəndlərdə isə yerli idarəetmə, yəni bələdiyyələr işləyir. Həmin dövlət idarələri və ya prezidentin bölgə üzrə nümayəndəsi isə işlərə ümumi nəzarət edir. Əgər bizdə də, bu idarəetmə formatına keçilsə, təbii olaraq yerli özünüidarəetmənin səviyyəsi artacaq ki, bu da bələdiyyə sisteminin inkişafı deməkdir. Bələdiyyələr seçkli orqandır və fəaliyyətləri ictimaiyyət üçün tam şəffaf və açıq olur. İcmalar istənilən vaxt bələdiyyələrin fəaliyyətinə nəzarət edir, təkliflər verir, təşəbbüslər göstərir və məsələlərin həllində iştirak edirlər. Bələdiyyə vergiləri yığılması, xərclənməsi haqda mütamadi hesabatlar verir.

Bunun nəticəsində dövlətin yükü azalır və əhalinin idarəetmədə rolu artır. Bu sistem əksər ölkələrdə çox effektli şəkildə işləyir. Azərbaycanda da bu istiqamətdə işlər aparılır.

Ümumiyyətlə, ölkəmizdə həm iqtisadi, həm sosial, həm mədəni sahələrdə dövlətin yükü, payı böyükdür. Daha çevik fəaliyyət göstərmək, dövlət aparatının saxlanmasına daha az xərc çəkmək, daha çox ictimaiyyətin rolunu artırmaq üçün regional idarəetməyə keçid və bələdiyyələrin səlahiyyətinin və fəaliyyətinin artırılması vacibdir. Və bu işin paralel aparılması daha məqsədəuyğun olardı.

Dövlət aparatının şişməsinin qarşısının alınması üçün son vaxtlar başqa tədbirlər də görülür. Belə ki, uyğun sahələrdə olan dövlət orqanlarının bir nazirlikdə, komitədə və agentlikdə birləşməsi həm xərclərə qənaət etmək, həm daha çevik işləmək, həm də kordinasiyanın effektivliyi cəhətdən daha əlverişli olur. Bu səbəbdən həmin prosesin aparılmasını təqdirəlayiq hesab etmək olar.

Hər bir halda müasir dövrün tələbləri, az güclə daha çox iş görməyi tələb edir. Dövlət ictimaiyyətin idarəetmədə iştirakında maraqlı olur və nəticədə ölkənin sosial-iqtisadi inkişafına tövfə verilmiş olur. Azərbaycan da bu yolu seçir və şübhə yoxdur ki, aparılan islahatlar tezliklə öz müsbət nəticələrini verəcəkdir.

# Rus politoloq: Yerevanın siyasəti siyasi fahişəlikdir

Vitali Arkov: Ermənistan sülhməramlıları Azərbaycanla qarşı-qarşıya qoymaq üçün təxribat etməyə çalışır- hamısı bunun üçün nəzərdə tutulub



Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən üçtərəfli bəyanatın imzalanmasından sonra ikinci il başa çatır. İlin sonuna qədər Bakı ilə İrəvan arasında sülh sazişinin əldə olunmasına ümidlər sıfıra enir. Ermənistan hələ də Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsinə razılıq verməyib. Delimitasiya prosesində də irəliləyiş yoxdur. Rəsmi Bakının son həftələr "siqnal verdiyi" üçün Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində irəliləyişlər, üçtərəfli bəyanatların icrası kifayət qədər məhdud olaraq qalır.

Müəyyən qüvvələr prosesi ilin sonuna qədər qızışdırmaq qərarına gəliblər. Belə görünür ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması məntiqi çərçivəsində, Qarabağda qanunsuz mədənlərin monitorinqi məsələsini erməni separatçıları Rusiya və Azərbaycanı sıxışdırmaq üçün növbəti şouya çevirmək qərarına gəliblər.

Gərginliyi azaltmaq üçün nə etmək olar? PolitRUS portalının rəhbəri, politoloq Vitali Arkov Moskva-Baku portalına müsahibəsində MDB dövlət başçılarının Sankt-Peterburqda keçiriləcək qeyri-rəsmi görüşü çərçivəsində dekabrın sonu Rusiya, Azərbaycan və Ermənistan liderlərinin potensial üçtərəfli görüşü ola biləcəyini deyir.

- Rəsmi İrəvan müxtəlif qüvvələrin təsiri altında bütün ili yenidən nəzərdən keçirməyə, üçtərəfli bəyanatların icrasına mane olmağa, Qarabağın statusu ətrafında isterikanı gücləndirməyə çalışıb. Bu, qədim erməni ənənəsidir. Robert Köçəryanın və Serj Sarkisyanın dövründə Ermənistan beynəlxalq səviyyədə hansı sənədləri imzalamadı. Və sən bunları yerinə yetirmisən? Yox. Hər zaman bəzi bəhanələr olurdu, yeni şərtlər irəli sürülürdü. Ermənistanın liderləri dəyişir, lakin rəsmi Yerevan öz ənənələrinə sadiqdir. Ən mənfi şəkildə.

Ermənistan müxalifəti üçtərəfli bəyanatın imzalanmasından iki il sonra öz gündəmini həyata keçirə bilmədi, Paşinyanı devirə bilmədi. İndi Bakı və İrəvan tərəfindən sülh müqaviləsi məsələsi işlənəndə separatçılar fəallaşaraq aksiyalar təşkil edərək Rusiya ilə Azərbaycanı birbirinə sıxışdırmağa çalışır, süni şəkildə neqativ fon yaradırlar.

Bu günlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada azərbaycanlı həmkarı Ceyhun Bayramovla danışıqların yekunlarına dair mətbuat konfransında həmkarı ilə Qarabağda qeyri-qanuni hasilat məsələsini müzakirə etdiyini və Azərbaycan idarələrinin nümayəndələrinin Rusiya sülhməramlı kontingentinin iştirakı ilə ərazidə işlədiyini deyib. Aşağıdakılar diqqətəlayiqdir: Rusiya diplomatiyasının rəhbəri vurğulamışdır ki, "Azərbaycan və qonşuları tərəfindən sazişlərin həyata keçirilməsi ilə bağlı verilən üçtərəfli bəyanatlar Rusiya Federasiyası üçün prioritet əhəmiyyət kəsb edir".

Bəzi qüvvələr, o cümlədən erməni diasporu informasiya məkanında ən ağrılı şeylərlə - Qarabağın statusu, erməni birləşmələrinin Qarabağdan çıxarılmaması ilə uğraşır, bundan Rusiya ilə Azərbaycan arasında sülhməramlılar səviyyəsində toqquşma üçün alət kimi istifadə etməyə çalışırlar.

Bildiyiniz kimi, Moskvanın öz ətrafında başqa qaynar nöqtəyə ehtiyacı yoxdur. Moskva çalışır ki, müharibə baltaları yenidən qazılıb çıxarılmasın. Nə Ermənistan, nə də Azərbaycan tərəfindən. İki xalqın onilliklər ərzində düşmənçilik etdiyi, maraqların həddən artıq çox olduğu, o cümlədən üçüncü qüvvələrin regionda gərginliyi qeyri-müəyyən müddətə saxlamaqda, müxtəlif qüvvələr arasında toqquşmaların yaşandığı bir vaxtda sülhü qorumaq kifayət qədər çətindir. Yalnız sənəddəki imzalar bütün bunları dayandırmayacaq. Çox səviyyəli işə ehtiyacımız var. Və Moskva bu məsələ ilə məşğul olmaqda davam edir.

Vəziyyətlə bağlı bu günlərdə Paşinyan və Əliyevlə aparılan danışıqlarda, əminəm ki, Putin vəziyyətə baxmaq təklifini irəli sürüb. Aydındır ki, hər kəsin öz həqiqəti var, amma İrəvan həddi aşır, inamdan, xeyirxahlıqdan sui-istifadə edir. Və buna son qoymaq lazımdır. Ermənistan imzalanmış sənədləri özünəməxsus şəkildə şərh edir ki, bu da onlarda yazılanların tam əksinədir.

Rusiyanın hər an prosesin nəbzini tutması, tərəflərlə daimi dialoqun olması müsbət haldır. Həm də regiondakı vəziyyətə və Moskvanın vasitəçi statusunu təsdiqləməsinə görə. Məsələlər həll olunur. Mən tam etiraf edirəm ki, MDB-nin qeyri-rəsmi sammitində Sankt-Peterburqda görüş təşkil olunacaq. İndi görünür, bütün detallar üçtərəfli formatda razılaşdırılır. Və Ermənistanın liderlərin Brüssel danışıqlarını pozması fonunda belə bir görüş nizamlanma üçün çox vacibdir.

Moskva da erməni revanşizmini, manipulyasiya cəhdlərini, "yox, Qarabağdan əl çəkməyəcəyik" bəyanatlarının aktivləşməsini görür. Erməni tərəfi Moskvanın və Bakının səbrindən sui-istifadə edir, həm də çox sui-istifadə edir.

Aydındır ki, Qarabağ de-yure Azərbaycandır, lakin de-fakto indi Qarabağın bir hissəsi Ermənistanın nəzarətindədir, orada erməni əhali yaşayır. Separatçılar, diaspor və İrəvan bununla manipulyasiya edirlər. Orada sülhməramlıların olmasından istifadə edirlər. Görünür, yalnız Bakı məsələni güc yolu ilə həll edəndə başa düşəcəklər. Amma Ermənistan Azərbaycanın sülhməramlılara qarşı olduğunu göstərmək üçün təxribat etməyə çalışır. Hamısı bunun üçün nəzərdə tutulub.



Yeri gəlmişkən, bir çox Rusiya ermənilərı başa düşürlər ki, Qarabağ məsələsinin həlli uzanıb və bu, erməni xalqına ziyan vurur, Ermənistan ölkənin inkişafına imkan vermir, onu geri çəkir. Bu il İrəvan öz maraqlarını ifadə etməyə başladı, bunun arxasında Fransa, ABŞ, İran dayandı və bu istiqamətdə fəal oyunlar oynamağa başladı. Ermənistanın əli ilə bölgəni çirkləndirməyə çalışırlar.

Qərbin məqsədi dəyişməz olaraq qalır - Rusiyanı Ermənistan-Azərbaycan nizamlanmasından çıxarmaq, Moskvanın başlatdığı sülh prosesini alt-üst etmək və onu öz himayəsi ilə yenidən başlatmaq, regionda möhkəmlənmək. Bütün il ərzində bunun üçün nə qədər zəhmət çəkdi. Brüsselin, Parisin cəhdlərini görürük. Ermənistan Qərb müşahidəçilərinin öz ərazisinə daxil olmasına icazə verib. Məhz Ermənistan Qərbin Cənubi Qafqazda maraqlarının dirijoruna çevrildi. Ermənistan baş nazirinin KTMT sammitində son demarşı da buna işarə edir.

Görünən odur ki, Paşinyan sadəcə olaraq əlində olan imkanlardan istifadə edir- o, ənənəvi olaraq vəziyyətin Ermənistanın xeyrinə dəyişəcəyi ümidi ilə çalışır. Bunun fonunda separatçılar Qarabağı Ermənistanın nəzarətində saxlamaq kimi vəzifələrini həll edirlər. Bunlar millətçiliklə yaşayan qisasçılardır, Azərbaycanla barışmaq istəmirlər. Lakin 10 noyabr 2020-ci ildə üçtərəfli bəyanatın imzalanması ilə bölgədə vəziyyət dəyişdi.



Üçtərəfli bəyanata yenidən baxmaq mümkün deyil, 44 günlük müharibənin nəticələrinə yenidən baxmaq mümkün deyil. Bu sənədin imzalanması ilk növbədə Ermənistanın özünə inkişaf imkanları açdı. Revanşizm, üçtərəfli bəyanatın icrasına mane olmaq isə Ermənistan üçün yeni - hər cəhətdən- insani, reputasiya itkilərinə gətirib çıxaracaq. Revanşizm, daxili və xarici qüvvələrin təzyiqi ilə üçtərəfli bəyanata yenidən baxılması cəhdləri Ermənistanı iflasa gətirib çıxaracaq, vəziyyəti daha da gərginləşdirəcək.

Bu gün gördüyümüz kimi, Qarabağın statusu məsələsi mahiyyətcə həll olunmuş məsələdir. Rusiya hər zaman Qarabağın Azərbaycan olması mövqeyindən çıxış edib. Azərbaycan heç vaxt Qarabağın qalan hissəsinin separatçılar tərəfindən saxlanmasına razı olmayacaq. Rusiya bütün bunları başa düşür, bütün buna müxtəlif qüvvələrin Moskva və Bakını sıxışdırmaq cəhdlərini görür.

Paşinyan bütün "çoxtərəfliliyinə" baxmayaraq, hələ də Moskva ilə qısa əlaqədədir. Əgər icazə verilləndən kənar bir şey etməyə çalışarsa, Rusiyaya real ziyan vurarsa, mən inanıram ki, bu, artıq Moskvanın dialoq aparmayacağı lider olacaq. Ermənistan rəhbərliyinə ciddi və məsuliyyətli insanlar gəlməlidir. Bəli, bu gün də respublikada radikalların hakimiyyətə gələ bilməsi təhlükəsi qalmaqdadır. Bütün bunların fonunda Paşinyan iki şərdən ən kiçiyidir.

Bu gün Moskva Ermənistanı radikal hərəkətlərdən çəkindirir. Bəlkə də Paşinyan Moskvada and içib ki, müqavilələri yerinə yetirəcək, amma bildiyimiz kimi, Ermənistanın baş naziri öz sözünün ağası deyil. Putinlə, Əliyevlə görüşəndə bir şey deyir, İrəvana qayıdanda isə tamam başqa şey deyir. Bəlkə də bu, bipolyar pozğunluğa bənzəyir. Amma əslində bu, hamının xoşuna gəlmək, hamıya satmaq istəyidir - Qərbə də, Rusiyaya da, İrana da, Türkiyəyə də. Əksər ölkələr çoxvektorlu siyasət yürüdürlər. Biz bunu eyni Azərbaycanın timsalında görürük. Bakı həm Rusiya, həm də Qərblə tərəfdaşlıq əlaqələri qurub. Amma o, bacarıqla, müdrikliklə qurulub, belə bir siyasətin əsasında onun öz milli maraqları dayanır. Bakı isə öz milli maraqlarına xəyanət etməyəcək. Yerevanda isə onun siyasəti daha çox siyasi fahişəlikdir.

Rusiya İrəvandan baş nazirin imzaladığı sənədlərin ciddi şəkildə icrasını tələb edəcək. Mövzu ətrafında oynamayın, öz tərzinizlə şərh etməyin, ancaq sənədlərin tələbinə əməl edin. Biz dəfələrlə İrəvandan, o cümlədən Paşinyandan qeyd-şərtlə də olsa, eşitmişik ki, Ermənistan hakimiyyəti sülh müqaviləsi imzalamağa hazırdır, Qarabağın statusu ilə bağlı təzyiqi aşağı salmaq lazımdır. Bu müsbət siqnaldır.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.

SON SƏHİFƏ
SƏS
14 dekabr
2022-ci il

# Kirayə evlər niyə bahalaşır?



**“Mənzil kirayələrinin artması əsasən yeni tədris ilinin başlanması ilə əlaqədardır. Amma hal-hazırkı vəziyyət düşünürəm ki, dediyimiz məsələdən daha çox infilyasiya ilə əlaqədardır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Asif İbrahimov deyib.**

Onun sözlərinə görə, əvvəllər şəhərimizdə tikilən mənzillərin 1kv/m-nə uyğun olaraq mütənasib hesablanırdı. Misal üçün əvvələr Əhmədli qəsəbəsində və yaxud Neftçilər metrosu ətrafında olan mənzillərin 10-15 il bundan əvvəl 300-500 manat arası kirayə haqqı olurdusa, indiki dövrdə bu qiymət 800-1000 manat arası dəyişir. Bundan başqa Azərbaycanda bir çox sənədsiz və köhnə, sovet dövründən qalma binalar var. Düşünün ki, bu binalar olmasaydı, Azərbaycanda kirayə mənzillərinin qiymətinin tənzimlənməsi çox çətin olardı. Həmin o mənzillər var deyə az da olsa rəqabət yaranır və qiymətlərin artmasının qarşısını alır. Düşünürəm ki, bu sahədə lazımi işlər görmək lazımdır. Xüsusilə də yeni tikilən mənzillərin qiymətinin maya dəyərindən baha başa gəlməsi məsələsi ortaya çıxır. Buna görə də kirayə mənzillərin qiyməti çox baha başa gəlir. Bundan başqa da yeni tədris ili başlayanda rayonlardan gələn tələbə axını nəticəsində mənzil kirayəsinin qiymətlərində bahalaşma müşahidə olunur”.

*Ziya Hikmət oğlu*

## Mahsum Kırmızıgül Bakıya gəlmək üçün nə qədər pul istəyib?



Məşhur müğənni Mahsun Kırmızıgül 17 illik fasilədən sonra Bakıya gələcək. SİA xəbər verir ki, sənətçinin konserti yaxın aylarda məşhurlaşacaq. O, Azərbaycana gəlməsi qarşılığında 175 min dollar (təxminən 297 min 500 manat) tələb edib.

*Banuçiçək*

## İmişli sakini həmyerlisinin darvazasına atəş açıb

İmişli sakini həmyerlisinin darvazasına atəş açıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.



Bildirilib ki, dekabrın 12-də saat 16 radələrində İmişli şəhərində yaşayan M.Hümbətovun evinin darvazasına tüfəngdən atəş açılması barədə polisə məlumat daxil olub. İmişli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən aparılan araşdırmalarla şəhər sakini Bəhlul Qədirovun münaqişə zəminində tüfəngdən darvazaya bir dəfə atəş açması müəyyən olunub.

Görülmüş tədbirlərlə B.Qədirov saxlanılıb, ondan ”İJ-18” markalı ov tüfəngi götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin 221-ci (Xuliqanlıq) maddəsi ilə cinayət işi başlanılıb.



## Fransa millisi üçün fantastik mükafat:
# 40 milyon avro!

**Futbol üzrə Fransa millisinin dünya çempionu olacağı təqdirdə alacağı mükafat müəyyənləşib. Fransa mətbuatının yazdığına görə, Didye Deşamın rəhbərlik etdiyi yığma Qətərdə keçirilən mundialın qalibi olarsa, komandaya 40 milyon avro veriləcək. Hər futbolçu təqribən 400 min avro alacaq.**

Komanda ən pis halda 24 milyon avro əldə edəcək. Belə olacağı təqdirdə, hər bir oyunçunun qazancı təxminən 240 min avro olacaq. Qeyd edək ki, dünya çempionatının yarımfinal mərhələsi çərçivəsində dekabrın 14-də keçiriləcək matç Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

## Bu qida məhsullarını acqarına qəbul etmək təhlükəlidir



Məsləhət görülməyən qida məhsullarının ac qarına qəbul edilməsi 2-ci tip şəkərli diabet və ya ürək-damar sisteminin işində patoloji dəyişiklərə səbəb ola bilər. Bu barədə ”Doktor Piter” saytı yazır. Saytın yazdığına görə, terapevt və qastroenteroloq Aleksandra Yakovleva müsahibəsində acqarına istifadə edilməsi qəti məsləhət görülməyən qida məhsulları barədə danışıb. Xüsusilə, o qeyd edib ki, boş, qida ilə doldurulmamış mədə kofein almamalıdır.

”Yuxudan oyanandan sonra acqarına qəbul edilən bir fincan qəhvə xoşagəlməz fəsadlara gətirib çıxara bilər, çünki mədədə xlorid turşusu istehsalını stimullaşdırır və selikli qişanı qıcıqlandırır”, - deyə Yakovleva izah edib.

Bundan başqa, un məhsulları, xüsusilə, sənaye istehsalı un məhsulları, acqarına istehlak edilmək üçün təhlükəlidir. Mağazadan alınan çörəklər, tostların tərkibində yüksək dozada şəkər, transyağlar ola bilər. Qəbul edildikdən sonra belə qida məhsulları qanda şəkəri kəskin şəkildə artırır, insulin ifrazını çoxaldır. Mütəmadi olaraq səhərlərin bu cür qida məhsulları ilə başlanması çəkidə artım, prediabet və 2-ci tip şəkərli diabetə səbəb ola bilər. ”Enerji dəyəri baxımından dənli bitkilər, müsli və quru yeməklər zərərli hesab olunur”, - deyə Yakovleva əlavə edib.

Bundan əlavə, səhər yeməyində təzə sıxılmış şirələr, çiy tərəvəz və meyvələrə yer yoxdur, - deyə həkim izah edib. Bu qida məhsulları və içkilər turşular, şəkər və qaba liflə zəngindir - acqarına istehlak edildikdə, bütün bunlar mədə-bağırsaq traktının zərif toxuması üçün təhlükəli olur, insanı qastrit, mədə xorası, qıcqırmaya meylli edir.

Fermentləşdirilmiş süd məmulatları da acqarına yeyildikdə təhlükəlidir. Yakovleva xatırladıb ki, bu cür qida məhsulları həzm traktında faydalı bakteriyaların fəaliyyətini stimullaşdırır, lakin bu, mədədə müəyyən qidaların olması şərtilə baş verir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3600**